

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 08 (799) ■ 24 fevral 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri

Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına rəsmi səfərə gəlib. Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı Tehranın «Mehrabad» hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Azərbaycan Prezidentini İranın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri qarşılayıblar.

Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə «Sədabad» sarayına gəlib. İran İslam Respublikasının Prezidenti Həsən Ruhani dövlətimizin başçısını qarşılayıb. Qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü keçirilib. Daha sonra dövlət başçılarının geniş tərkibdə danışıqları olub. Prezident Həsən Ruhani bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin İrana rəsmi səfəri çox böyük əhəmiyyət daşıyır və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcək. Qeyd edib ki, əlaqələrimiz artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu, münasibətlərimizin bütün sahələrdə daha da irəliyə aparılmasını mühüm vəzifə kimi qarşıya qoyur. O, rəsmi Tehranın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını vurğulayıb.

Prezident İlham Əliyev əlaqələrimizin böyük tarixi olduğunu və möhkəm təməllər üzərində qurulduğunu bildirib. İrana qarşı tətbiq olunan sanksiyaların ləğv edilməsi münasibətilə İran Prezidentini və xalqını təbrik edən dövlətimizin başçısı Azərbaycanın və İranın mövqelərində bir çox məqamların üst-üstə düşdüyünü vurğulayıb, regionda yaşanan gərginliyə baxmayaraq, hər iki ölkənin sabitlik nümunəsi olduğunu xatırladıb. Azərbaycan Prezidenti beynəlxalq və dövlətlərarası münasibətlərdə ədalətli yanaşmanın, sabitliyin, təhlükəsizliyin yaranmasının vacibliyini bildirib, terrorizmə qarşı mübarizədə birgə əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edib.



Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin iştirakı ilə «Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və təsirinin azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında baytarlıq və heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında elektrik enerjisinin satışı haqqında Çərçivə Sazişi», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Çərçivə Sazişi», «Azərbaycan Dəmir Yolları» QSC ilə İran İslam Respublikasının Dəmir Yolları arasında Azərbaycan-İran dövlət sərhədində Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi haqqında Müqavilə», «Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə İran Milli Neft Şirkəti arasında Anlaşma Memorandumu» və «Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Qədir İnvestisiya Şirkəti arasında Anlaşma Memorandumu» imzalanıb.

Sonra hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış ediblər.

Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Azərbaycan Prezidenti hər iki tərəfin bir-birini beynəlxalq təşkilatlarda dəstəklədiyini, beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq üçün birgə fəaliyyəti genişləndirmək barədə razılaşma əldə edildiyini xatırladıb. Əlaqələrin bundan sonra da inkişaf edəcəyini deyən dövlətimizin başçısı iqtisadi əlaqələrin daha da genişlənməsinə, nəqliyyat-kommuniksaiya sahəsində layihələrin uğurla həyata keçiriləcəyinə əminliyini ifadə edib. Enerji sahəsində əməkdaşlıqdan danışan Azərbaycan Prezidenti Xəzər dənizinin resurslarının ümumi istifadəsi ilə bağlı da faydalı danışıqların aparıldığını vurğulayıb. Qeyd edib ki, hər iki ölkədə hazırda ciddi iqtisadi islahatlar aparılır, biznes mühiti yaxşılaşır, belə olduğu halda qarşılıqlı sərmayə, maliyyə, bank, sığorta, turizm və əczaçılıq sektorlarında da əməkdaşlıq üçün gözəl imkanlar var.

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani bəyanatında bildirib ki, İran və Azərbaycan xalqı iki bədəndə bir ruhdur. Bizi müştərək tarix, mədəniyyət, məzhəb və din birləşdirir. H.Ruhani qeyd edib ki, İran və Azərbaycan regionda sabitlik və təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlıqda maraqlıdır: «Bu gün regionda böyük problemlər yaşanmaqdadır. Radikalizm və terrorizm regionda böyük problemlərdir və bu problemlərlə mübarizə aparmaq lazımdır. Biz regionda sülh və dostluğun hökm sürməsini istəyirik. İran və Azərbaycan bir-biri ilə səmimi və yaxın əlaqələr qurmaq niyyətindədir və açıq şəkildə elan edirik ki, üçüncü ölkənin iki xalqın əlaqələrinə problem yaratmasına imkan verməyəcəyik».

# Dövlətimizin başçısı Gəncədə bir sıra obyektlərin açılışında iştirak edib

Prezident İlham Əliyev fevralın 17-də Gəncəyə səfəri çərçivəsində ümummilli lider Heydər Əliyevin şəhər mərkəzində ucaldılan abidəsini ziyarət edib. Sonra dövlətimizin başçısı «İmamzadə» dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılış mərasiminə qatılıb. İctimaiyyətin nümayəndələri və din xadimləri ilə görüşən Prezident İlham Əliyev mərasimdə nitq söyləyib. Bildirib ki, «İmamzadə» abidəsi bizim ümumxalq sərvətimizdir, bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsidir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycanda nümunəvi tolerantlıq mühitinin mövcudluğunu deyən dövlətimizin başçısı bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlərin keçirildiyini, İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə təşkil olunan onlarla tədbirin müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində böyük rəğbətlə qarşılandığını xatırladıb: «Azərbaycan müsəlman aləmində çox böyük nüfuza malik olan ölkədir. Biz bunu təkcə iqtisadi və sosial inkişafımıza görə əldə etməmişik. O cümlədən dinlərarası münasibətlərdə oynadığımız rol bütün müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Mənim müsəlman ölkələrinə səfərlərim, müsəlman ölkələrinin rəhbərlərinin Azərbaycana səfərləri dediyimi bir daha təsdiq edir. Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir».




Dünyada dini ayrı-seçkiliyin, dini zəmində qarşıdurmaların və humanitar fəlakətlərin artmasına diqqət çəkən Azərbaycan Prezidenti bu cür problemlərdən əziyyət çəkən günahsız insanlara qarşı müxtəlif dövlətlər tərəfindən ədalətsizliklərin baş verməsindən təəssüfləndiyini, respublikamızın dünyada multikulturalizm modelini təqdim etdiyini vurğulayıb: «Bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdir. Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Keçən il Azərbaycanda Avropa Oyunları keçirilib, gələn il isə İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, sadəcə olaraq İslam və Avropa ölkələri idmançılarının yarışı deyil, bu, bizim ümumi, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz öz məsuliyyətimizi belə qəbul edirik, belə başa düşürük. Biz bu məsuliyyəti ilk növbədə, dövlətimizin, xalqımızın mənafeyi, digər tərəfdən bölgədə sabitliyin bərpası üçün daşıyacağıq».

Mərasimdə çıxış edən din xadimləri Azərbaycanda dövlət-din münasibətlərinin, dinlərarası dialoq, tolerantlıq, multikulturalizmin nümunəsini yüksək dəyərləndiriblər.

Gəncədə Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev sonra Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib. «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra açılış mərasiminə qatılan dövlətimizin başçısı sonra «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin istehsal sahələri ilə tanış olub.

Prezident İlham Əliyev səfər çərçivəsində «Gəncə - 2016-cı il Avropa Gənclər paytaxtı» parkında yaradılan şəraitlə tanış olub, Gəncədə «Nizami» yarımstansiyasının açılışında iştirak edib, həmçinin Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olub, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının açılışında iştirak edib.

Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak edən Azərbaycan Prezidenti yaradılmış şəraitlə bağlı məlumat verilib. Bildirilib ki, yaşayış kompleksi 14 çoxmənzilli binadan ibarətdir. Kompleks şəhərin Yeni Gəncə yaşayış massivində 2-ci mikrorayonda yaradılıb. Doqquzmərtəbəli binalardan ibarət kompleksdə ümumilikdə 696 mənzil var. Onların 48-i birotaqlı, 224-ü ikiotaqlı, 312-si üçotaqlı, 112-si isə dördotaqlıdır. Mənzillər su, işıq, qaz və «kombi» istilik sistemi ilə təmin olunub. Kompleksin ərazisində yaşıllaşdırma və abadlıq işləri ilə yanaşı, sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb. Uşaq əyləncə və idman meydançası salınıb.

# Türkiyənin xarici işlər naziri Azərbaycanda olub

Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı Mövlud Çavuşoğluna və türk xalqına başsağlığı verən dövlətimizin başçısı bu terrorun Azərbaycanı da sarsıtdığını vurğulayaraq, hadisənin ölkəmizdə qətiyyətlə pislənildiyini və qınanıldığını bildirib. Prezident İlham Əliyev, həmişə olduğu kimi, bu ağır günlərdə də Azərbaycan xalqının türk xalqının yanında olduğunu vurğulayıb, Türkiyə Prezidenti üçün münasib olan bir vaxtda Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ölkəmizdə keçiriləcəyi ilə bağlı razılaşdıqlarını da qeyd edib.

Mövlud Çavuşoğlu Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının yaxın vaxtlarda gerçəkləşəcəyinə və dövlət başçılarının liderliyi ilə ölkələrimiz arasında münasibətlərin daha da irəliyə aparılacağına əminliyini ifadə edib.

## BU NÖMRƏMİZDƏ

NİDERLAND KRALLIĞININ SAHİBKARLAR KONFEDERASİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 2

APELYASİYA ŞURASINDA VERGİ ÖDƏYİCİLƏRİNİN TƏKRAR ŞİKAYƏTLƏRİNƏ BAXILIB 2

VERGİ BORCUNUZUN MƏBLƏĞİNİ NECƏ ÖYRƏNƏ BİLƏRSİNİZ... 3

«ASAN İMZA» BİZNESİN AYRILMAZ HİSSƏSİDİR 4

# Niderland Krallığının Sahibkarlar Konfederasiyasının nümayəndələri ilə görüş



Fevralın 17-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Azərbaycanda səfərdə olan Niderland Krallığının Sahibkarlar Konfederasiyası sədrinin birinci müavini Oberman Douv Pieter və «Scherjon» şirkətinin prezidenti Scherjon Hielko ilə görüşüb.

F.Məmmədov son illər ölkəmizdə bütün sahələrdə ciddi nailiyyətlər əldə olunduğunu, bu uğurların əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş siyasətin dayandığını bildirib. Qonaqların diqqətinə Azərbaycan və Niderland Krallığı arasında işgüzar münasibətlərin ildən-ilə inkişaf etdiyi, ölkələrimizin vergi xidmətləri arasında əməkdaşlığın genişləndiyi, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin müsbət nəticələr verdiyi, mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyi çatdırılıb, onlara Azərbaycanın vergi sistemində aparılan islahatlar, investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, «Azərbaycan Respublikası Hökuməti və Niderland Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya» mövcuddur və uğurla tətbiq edilir. «Azərbaycan Respublikası Hökuməti və Niderland Krallığı Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş» layihəsi isə hər iki tərəfdə bütün daxili razılaşdırma prosedurlarını keçib və imzalanmaq üçün hazırdır.

Ölkədə əlverişli investisiya mühitinin daha da yaxşılaşdırılması ilə bağlı təkmil hüquqi baza yaradıldığını nəzərə çatdıran vergilər naziri 2016-cı ildə investisiyaların təşviqi ilə bağlı dövlət başçısı tərəfindən daha bir neçə fərmanın imzalandığını, Vergi Məcəlləsi və «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edildiyini, qanunvericilik sənədlərində edilmiş bu dəyişikliklərlə ölkəmizə sərmayə yatırmaq istəyən investorlar üçün vergi və gömrük sahəsində əhəmiyyətli güzəştlər müəyyən olunduğunu və bunların xarici investisiyaların stimullaşdırılmasına xidmət etdiyini vurğulayıb.

Oberman Douv Pieter səmimi qəbula görə təşəkkür edərək, öz ölkəsinin Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb. Son illər yüksək iqtisadi artıma nail olan Azərbaycanla Niderland Krallığı arasında mövcud olan sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaq təcrübə mübadiləsinin daha da dərinləşdirilməsinin, mübadilə proqramlarının davam etdirilməsinin zəruriliyini və yeni əməkdaşlıq perspektivlərinin olduğunu bildirib. O, qeyd edib ki, Azərbaycanda istehsalın təşkili və məhsulların ixracı sahəsində yaradılmış şəraitdən məlumatlıdır və ölkədə olan sabitlik avropalı investorlar üçün cəlbedicidir.

Avropada istehsal sahələrinin yaradılması üçün münbit şərait olsa da məhsul ixracı zamanı müəyyən suallarla qarşılaşdıqlarını bildirən qonaq Niderland şirkətlərinin Azərbaycanda istehsal sahəsinə sərmayə yatırmaqda və burada istehsal olunacaq məhsulların qonşu ölkələrə də ixrac edilməsində maraqlı olduqlarını vurğulayıb. Qeyd edilib ki, Niderland Krallığının Sahibkarlar Konfederasiyasının üzvləri arasında Azərbaycana sərmayə qoymaq istəyən şirkətlər çoxdur və hazırda bir sıra sahələrdə əməkdaşlıq imkanları araşdırılır.

Görüşdə «Scherjon» şirkətinin prezidenti Scherjon Hielko Azərbaycanda əlverişli investisiya mühitin mövcud olması, investorların hüquq və mənafelərinin qorunması, xarici sahibkarlara əlverişli iş şəraitinin yaradılmasının təqdirəlayiq olduğunu bildirərək, rəhbərlik etdiyi şirkətin ölkəmizə investisiya qoymağa maraq göstərdiyini, İmişli rayonunda süd məhsulları istehsal edəcək zavodun tikilməsi ilə bağlı layihə hazırlandığını diqqətə çatdırıb. «Scherjon Dairy Equipment Holland BV» şirkətinin təqdim etdiyi avadanlıqlarda «Gouda» və «Edam» növlü holland pendirlərinin istehsalını nəzərdə tutan bu layihənin gələcəkdə digər layihələrin də reallaşdırılmasına zəmin yaradacağı bildirilib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Apelyasiya Şurasında vergi ödəyicilərinin təkrar şikayətlərinə baxılıb

Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurası fevral ayının 12-də iki təkrar şikayətə - fərdi sahibkar Fərhad Əsgər oğlu Alıyevin daşınmaz əmlakın satışından əldə olunmuş gəlirin vergiyə cəlb olunması məqsədilə keçirilmiş kameral vergi yoxlamasının nəticəsinin ləğv edilməsi və 16 nömrəli İnşaat İstehsalat Təsərrüfat Trestinin səyyar vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləğlərinin və tətbiq olunmuş maliyyə sanksiyalarının ləğv edilməsi barədə ərizələrinə baxıb.

Fərhad Alıyev təkrar şikayətində ona məxsus mənzillərin satılmasından əldə edilmiş gəlirlərə vergilərin hesablandığını, yaranmış borcun bir hissəsinin ödənildiyini nəzərə alaraq, digər hissəsinin ləğv edilməsini xahiş etmişdi. Araşdırma zamanı məlum olub ki, F.Alıyev 2013-2014-cü illərdə Bakı şəhərində yerləşən 2 mənzilini satıb, lakin qanunda göstərilən müddət ərzində vergi orqanına bəyannamə təqdim etməyib. Bakı Vergilər Departamentinin müəyyən edilmiş kənarlaşmalar üzrə vergi ödəyicisinə kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin təqdim edilməsi ilə bağlı uyğunsuzluq məktubuna vergi ödəyicisi müvafiq sənədlər və düzəlişlər edilmiş bəyannamə təqdim etmədiyi üçün departament tərəfindən vergi ödəyicisinə əlavə vergi hesablanıb.

İnzibati şikayətinin araşdırılması zamanı F.Alıyevin mənzilin təmirinə sərf edilmiş xərclər üzrə əlavə təsdiqedici sənədlər təqdim etdiyi və xərclərin həmin sənədlərlə öz təsdiqini tapdığı, habelə işin faktiki halları, gətirilmiş dəlillər və toplanmış materiallar əsas götürülərək, Vergi Apelyasiya Şurasında Fərhad Əsgər oğlu Alıyevin təkrar şikayətinin təmin edilməsi qərara alınıb.

Digər vergi ödəyicisi - 16 saylı İnşaat İstehsalat Təsərrüfat Tresti Vergilər Nazirliyinə ünvanladığı təkrar şikayətində Bakı Vergilər Departamenti tərəfindən tərtib edilmiş «Səyyar vergi yoxlaması» aktının ləğv olunmasını xahiş etmişdir. Araşdırma zamanı müəyyən olunub ki, adı çəkilən trestdə 2013-cü ilin dekabr - 2014-cü ilin noyabr aylarını əhatə edən dövr üzrə növbəti səyyar vergi yoxlaması keçirilib. Yoxlama aktına əsasən, trestin 2013-2014-cü illərdə mənfəət və əlavə dəyər vergisi üzrə hesablamaları azaltdığı müəyyən edildiyindən, vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq olunub. Yoxlama prosesində gəlirin əldə edilməsi ilə bağlı mal-material xərclərinin uçotunun aparılması barədə hesabatların və tikinti işlərində mal-materialların, alınan iş və xidmətlərin görülən işlərin həcminə uyğun olaraq normalara əsasən xərclərə silinməsi barədə texniki hesabatların yoxlamaya təqdim edilməməsi səbəbindən, trestin mənfəəti Nazirlər Kabinetinin «Vergi ödəyicisinin mənfəətini birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin hesablanması Qaydaları»na əsasən hesablanıb. Vergi ödəyicisi yoxlama ilə hesablanmış vergilərlə razılaşmayaraq, təkrar yoxlama keçirilməsini xahiş edib.

Vergi Apelyasiya Şurası vergi ödəyicisinin fəaliyyəti üzrə keçirilən səyyar vergi yoxlaması zamanı bütün halların tam araşdırılmadığını nəzərə alaraq, 16 nömrəli İnşaat İstehsalat Təsərrüfat Trestinin şikayətinin qismən təmin edilməsi, yoxlama ilə əhatə olunan dövr də nəzərə alınmaqla, vergi ödəyicisində növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edib.

***

Fevral ayının 19-da Vergi Apelyasiya Şurası «PJA» MMC-nin Bakı Vergilər Departamenti tərəfindən tərtib edilmiş «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» qərarının və «Səyyar vergi yoxlaması» haqqında aktının ləğv edilməsi ilə bağlı təkrar şikayətinə baxıb.

MMC-də 2012-ci ilin yanvar - 2014-cü ilin dekabr ayları əhatə edilməklə aparılan növbədənkənar səyyar vergi yoxlaması zamanı xarab olmuş məhsulların ƏDV-yə cəlb olunmadan uçotdan silindiyi müəyyən edilib və buna görə də əlavə dəyər vergisi hesablanıb. Bundan əlavə, yoxlanılan dövrdə MMC tərəfindən təqdim olunmuş ilkin mühasibat sənədlərinə əsasən, 2012-ci il üzrə əmlak vergisinin azaldıldığı aşkar edildiyindən, ona müvafiq maliyyə sanksiyası tətbiq olunub.

Vergi Apelyasiya Şurası aparılan müzakirələr, vergi qanunvericiliyinin bütün ziddiyyətləri və aydın olmayan məqamlarının vergi ödəyicisinin xeyrinə şərh edilməsi ilə bağlı müddəaları rəhbər tutaraq, təkrar şikayətin təmin olunması, habelə uçotdan silinmiş malların maya dəyəri düzgün müəyyən edilməklə hesablanmış vergilərin yenidən hesablanması məqsədilə 2012-ci ilin yanvar - 2014-cü ilin dekabr ayları əhatə olunmaqla vergi ödəyicisinin fəaliyyəti üzrə növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edib.

Vergi Apelyasiya Şurası daha bir vergi ödəyicisinin - «ONGC Videsh Limited» şirkətinin Azərbaycan Respublikasındakı filialının səyyar vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş «Səyyar vergi yoxlaması» aktının ləğv edilməsi ilə bağlı təkrar şikayətinə də baxıb.

2012-ci ilin dekabr ayından 2014-cü ilin avqust tarixinədək olan dövr üzrə aparılan növbəti səyyar vergi yoxlaması zamanı şirkətin gəlirlərini azaltmaq, xərclərin məsrəflərə aid olunan hissəsinin və amortizasiya xərclərinin əsassız olaraq artırması halları müəyyən edilib. Yoxlama zamanı filiala vergilərin hesablanması ilə bağlı bir sıra ilkin mühasibat sənədlərinin, o cümlədən əsas vəsaitlərin və əmlakın alğı-satqısı ilə bağlı müvafiq sənədlərin, pay satışı ilə bağlı alınmış əsas fondların (aktivlərin) siyahısını, tərkibini, qiymətini və dəyərini əks etdirən ilkin sənədlərin yoxlamaya təqdim olunması üçün tələbnamə təqdim edilib. Filial tərəfindən ilkin mühasibat sənədləri yoxlamaya təhvil verilsə də, digər şirkətlərlə bağladığı bəzi müqavilələr və təsdiqedici sənədlər təqdim olunmadığı üçün vergi ödəyicisinə xüsusi vergi rejimli müəssisələrin mənfəət vergisi üzrə əlavə vergi hesablanıb və vergilərin dövlət büdcəsinə vaxtında ödənilməməsinə görə faiz tətbiq edilib.

Vergi Apelyasiya Şurası tərəfindən təkrar şikayət üzrə tam, hərtərəfli və obyektiv araşdırma aparılması məqsədilə zəruri olan sənədlərin, həmçinin digər iki şirkətlə bağlanmış alğı-satqı müqaviləsinə əsasən satın alınmış əsas fondların (aktivlərin) siyahısının və alış dəyərini özündə əks etdirən təsdiqedici sənədlərin araşdırmaya təqdim edilməsi üçün filiala məktub göndərilib və şirkət tərəfindən qısa müddət ərzində həmin sualların cavablandırılacağı bildirilib.

Vergi Apelyasiya Şurasının iclasında aparılan müzakirələr və qanunvericiliyin müvafiq müddəaları nəzərə alınmaqla, eləcə də işin faktiki halları və gətirilmiş dəlillər əsas götürülməklə təkrar şikayətin mənfəət vergisindən narazılıq hissəsində qismən təmin edilib, qalan məsələlər üzrə şikayətə baxılması ilə bağlı müddətin axımının dayandırılması barədə qərar qəbul edilib.

# Vergidən yayınma ilə bağlı cinayət işləri başlanıb

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən «Bakı Elektriktökmə» ASC-nin ümumilikdə külli miqdar təşkil edən 370 min manat məbləğində vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması faktı üzrə Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsinə əsasən cinayət işi başlanıb.

İstintaqla müəyyən edilib ki, 29.12.2005-17.09.2012-ci il tarixlərdə «Bakı Elektriktökmə» ASC-nin sədri vəzifəsində işləmiş Məmmədov Şamil Cəbrayıloviç Vergi Məcəlləsinin 16.1.1-ci, 16.1.3-cü, 16.1.7-ci, 92-ci, 103.1-ci, 104-cü, 105.1-ci, 130.1-ci, 130.2-ci, 153-cü, 154-cü, 159-cu, 161-ci, 166-cı, 173-178-ci, 196-cı, 197-ci, 201-ci və 202-ci maddələrinin tələblərini pozaraq, vergi orqanına təqdim etdiyi bəyannamələrə bilərəkdən təhrif olunmuş məlumatlar daxil etməklə və bəyannamə təqdim etməməklə ümumilikdə külli miqdar təşkil edən 308,3 min manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayındırıb. Departament tərəfindən 31 avqust 2015-ci il tarixdə Ş.Məmmədovun Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunması haqqında qərar qəbul edilib. Lakin o, istintaqdan gizləndiyinə görə, ittiham elan etmək mümkün olmadığından, həmin tarixdə Ş.Məmmədov barəsində Cinayət-Prosessual Məcəlləsinin 278-ci maddəsinə əsasən axtarış elan edilib.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 11 fevral 2016-cı il tarixdə Ş.Məmmədov Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən tutularaq istintaqa cəlb olunub və elə həmin gün də təqsirləndirilən şəxs qismində cəlb edilərək ona Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə ittiham elan olunub. Ş.Məmmədovun az ağır cinayət əməli törətdiyini, daimi yaşayış yerinin olduğunu, törətdiyi cinayət əməlinin xarakterini, azadlıqda qalarsa istintaq və məhkəmə orqanlarından qaçıb gizlənməyəcəyini, eyni zamanda dövlət büdcəsinə ödəməkdən yayındırdığı vergilərdən 50 min manat məbləğində olan hissəsini könüllü olaraq dövlət büdcəsinə ödədiyini nəzərə alaraq, onun barəsində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçilib.

Departament tərəfindən digər bir cinayət işi «ES Qrup Konstrakşn» MMC-də külli miqdar təşkil edən 70,6 min manat məbləğində vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması faktı üzrə Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsinə əsasən başlanıb. İstintaq zamanı müəyyən edilib ki, müəssisənin direktoru Səfərov Elçin Hüseyn oğlu MMC-nin qeydiyyatda olduğu vergi orqanına təqdim etdiyi bəyannamələrdə gəlirlər və xərclər barədə qəsdən təhrif olunmuş məlumatları daxil etməklə cinayət əməli törədib. Departament tərəfindən 7 dekabr 2015-ci il tarixdə E.Səfərovun təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib, lakin olduğu yer müəyyən edilmədiyi və istintaqa cəlb olunmadığı üçün ona ittiham elan etmək mümkün olmayıb. Elə həmin tarixdə onun barəsində axtarış elan edilib.

11 fevral 2016-cı il tarixdə E.Səfərov Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən tutularaq müvəqqəti saxlanılması üçün Yasamal Rayon Polis İdarəsinə təhvil verilib. Cinayət işi üzrə dayandırılmış icraat təzələnib və ona Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə ittiham elan olunub.

# Vergi sistemində aparılan islahatlar müsbət qiymətləndirilir

Dünya Bankının beynəlxalq iqtisadiyyatın müxtəlif sahələri və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməsini özündə əks etdirən «Doing business 2016» hesabatı, eləcə də Dünya Bankı ilə PWC şirkətinin tərtib etdiyi «Paying taxes 2016» hesabatı ölkəmizin milli vergi sistemini biznesin aparılması nöqteyi nəzərindən yüksək dəyərləndirib. Azərbaycan bu hesabatlarda «Vergilərin ödənişi» meyarı üzrə dünyanın 189 iqtisadiyyatı arasında 34-cü yerdədir. Vergi inzibatçılığı sahəsində aparılan islahatlar, eləcə də vergi yükünün digər ölkələrlə müqayisədə xeyli az olması səbəbindən, Azərbaycanın vergi sistemi vergilərin ödənilməsinin asanlığına görə bir çox inkişaf etmiş dövlətlərin göstəricilərini qabaqlayır. Dünya Bankının qiymətləndirməsində ölkəmiz biznesə başlama imkanları üzrə 7-ci yerdə qərarlaşıb.

Bununla yanaşı, respublikamızda əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması işinin səmərəliliyinin artırılması üzrə strateji məqsədlərə nail olmaq üçün bir çox işlərin görülməsi vacib hesab olunur. Məhz yüksək vergi mədəniyyəti şəraitində vergi yığımı yüksəlir, dövlət büdcəsinin gəlirləri artır. Bu istiqamətdə aparılan islahatların, təbliğat, təşviqat işinin təşkili üçün qabaqcıl beynəlxalq təcrübələr araşdırılır, ən mütərəqqi olanlarının tətbiqi sahəsində işlər görülür.

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərin də böyük əksəriyyəti məhz bu məqsədlərə xidmət edir. Məcəllədəki dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artmasına hesablanmışdır. Dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsinin təşviqi qarşısında duran əsas vəzifələrdəndir.

Bununla yanaşı, əhalinin nağd ödənişlər zamanı çek tələb etmələri üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Vergi potensialının qiymətləndirilməsi və proqnozlaşdırılması modelləri sisteminin tətbiqi, müvafiq proqram paketi ilə təmin olunması, vergi orqanları tərəfindən nəzarət edilməsi nisbətən çətin olan peşələr üzrə, habelə digər sahələrdə vergidən yayınma hallarının minimumlaşdırılması üçün ictimai nəzarətin gücləndirilməsinin stimullaşdırılması üçün gələcəkdə də qanunvericilikdə dəyişikliklərin edilməsi istisna olunmur.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında milli vergi sistemi üçün də yeni hədəflər müəyyən edilmişdir. Bununla əlaqədar olaraq, Vergilər Nazirliyində 2013-2020-ci illər üçün vergi sisteminin strateji inkişaf planı təsdiq edilmişdir. Sözügedən plan çərçivəsində 22 istiqamət üzrə 86 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Vergi sistemində müasir informasiya texnologiyalarının, elektron xidmətlərin genişləndirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulması istiqamətində aparılan islahatlar bu siyasətin əsas prioritetləridir. Konsepsiyanın həyata keçirilməsi nəticəsində iqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədilə aktiv vergi siyasətin genişləndirilməsinin təmin olunması, vergi dərəcələrinin optimallaşdırılması və sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması nəzərdə tutulmuşdur.

*Vergi sistemində müasir informasiya texnologiyalarının, elektron xidmətlərin genişləndirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulması istiqamətində aparılan islahatlar bu siyasətin əsas prioritetləridir*

**Rəşad SADIQOV**

# Vergi borcunuzun məbləğini necə öyrənə bilərsiniz...




Vergi sistemində aparılan islahatlar, vergi xidmətlərinin elektronlaşdırılması sayəsində artıq vergi ödəyiciləri öz öhdəliklərinin icrası ilə bağlı rüblük və illik hesabatlarını (bəyannamələrini) elektron şəkildə təqdim edə, eyni zamanda elektron kargüzarlıqdan yararlanaraq lazım olan bütün növ arayış və sənədləri vergi idarələrinə getmədən əldə edə bilərlər. Fiziki və hüquqi şəxslərin onlayn qaydada qeydiyyatdan keçməsi və ya qeydiyyatının dayandırılması, vergi borclarını elektron qaydada ödəmək, banklarda hesabların açılması, təsərrüfat subyektlərinin onlayn qeydiyyatı, POS-terminalların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması kimi mühüm fəaliyyətləri internet üzərindən icra etmək mümkündür.

İndi ölkəmizdə vergi ödəyicilərinə vergi orqanına yazılı müraciət etmədən vergi borcları və ödədiyi vergilər barədə məlumat almaq imkanları yaradılıb. Bəs bu imkanlar hansılardır?

*Ən asan metod - «195» Çağrı Mərkəzinə zəng edib, 1 düyməsini sıxmaqla Vergilər Nazirliyinə qoşulduqdan sonra 3 düyməsini seçməkdir. Daha sonra öz VÖEN-nizi daxil edib # düyməsini sıxmaqla həmin tarixə vergi borcu barədə məlumatı əldə edə bilərsiniz.*

İkinci metod - İnternet Vergi İdarəsinə daxil olmaqla reallaşdırılır. Vergi ödəyicisi istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə İnternet Vergi İdarəsinin «E-bəyannamə, ƏDV-DH və ŞHV» (https://login.e-taxes.gov.az/login/) bölməsinə daxil olub, sonra «Məlumat axtar» altbölməsindəki «Şəxsi hesab vərəqəsi» vasitəsilə öz öhdəlik və borcu üzrə məlumatları əldə edə bilər.

Üçüncü metod - SMS göndərməklə məlumat almaqdır. Vergilər Nazirliyinin təqdim etdiyi «İkitərəfli SMS xidməti»nə (www.taxes.gov.az/195sms) qoşulmaqla (abunə olmaqla) 21, xidmətdən sorğu vasitəsilə (SMS göndərməklə) isə 5 istiqamət üzrə vergi öhdəlikləri barədə məlumatlar əldə etmək mümkündür. Xidmətdən istifadə etmək üçün mobil operatorlara məxsus telefon nömrəsindən *195*istifadəçi kodu*şifrə#yes (məsələn: *195*00000541*121756#yes) yığmaqla qeydiyyatdan keçmək tələb olunur.

Abunə olmaqla da istənilən məlumatı əldə etmək mümkündür. Qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə START yazıb SMS göndərməklə vergi öhdəlikləri barədə məlumat almaq olar. Abunə olmadan qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə müvafiq rəqəmləri (1 - dövlət büdcəsinə olan vergi borcu, 2 - təqdim edilməli bəyannamələr, 3 - fəaliyyətin aktiv və ya dayandırılmış olması, 4 - e-qutuda oxunmamış məktubların olub-olmaması və 5 - qeydiyyatda olan təsərrüfat subyektləri barədə) yazıb SMS göndərməklə lazım olan məlumatları ala bilərsiniz.

**Fəxriyyə İKRAMQIZI**

2016-cı ilin yanvar ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin sual-cavab bölməsinə 182 müraciət üzrə 224 sorğu daxil olub. Bu müraciətlər üzrə və ötən ilin dekabr ayı ərzində qəbul edilmiş 83 sorğu daxil olmaqla, 232 sorğu cavablandırılıb, o cümlədən daxil olmuş 1 sorğu baxılmaq üçün Vergilər Nazirliyinin Aparatına göndərilib.

Nazirliyin rəsmi internet səhifəsinə (www.taxes.gov.az) daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün istifadəyə verilmiş «Onlayn bələdçi» xidmətinə edilən 2166 müraciətdən 2127-si (98,2%) cavablandırılıb.

Yanvar ayında Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 399.761 istifadəçi daxil olub. Ötən ay nazirliyin «Facebook» sosial şəbəkəsindəki rəsmi səhifəsində istifadəçilərin ümumi sayı 35.065 nəfərə çatıb.

Rəsmi internet səhifəsinin «Vergilər naziri ilə əlaqə» bölməsinə yanvar ayında 151 müraciət daxil olub. «Facebook» və «Twitter» sosial şəbəkələrində, «Youtube» video-hostinq serverində, myvideo.az və video.az saytlarında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyət mütəmadi olaraq məlumatlandırılır.

# Milli Məclis 2016-cı il dövlət büdcəsinə dəyişiklikləri təsdiqləyib

Ötən həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda «Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında» qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirə edilib. Komitənin sədri Ziyad Səmədzadə bildirib ki, dövlət səviyyəsində görülən işlərin nəticəsi olaraq, ölkəmiz iqtisadi sahədə uğurlar əldə edib. Bununla belə, son bir ildə dünya üzrə neftin qiymətinin 4 dəfə aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib. Bu baxımdan, hökumət müxtəlif tədbirlər həyata keçirir ki, mövcud iqtisadi çətinlikdən maksimum az itki ilə çıxsın. Belə tədbirlərdən biri də Prezident İlham Əliyev tərəfindən Milli Məclisə göndərilən «Azərbaycan Respublikasının 2016-cı ilin dövlət büdcəsi haqqında» Qanuna dəyişikliklər edilməsi barədə sənəddir.

Qanun layihəsi barədə məlumat verən maliyyə naziri Samir Şərifov bildirib ki, təklif edilən düzəlişlər dünyada baş verən iqtisadi proseslərlə bağlıdır. Təlatümlü vəziyyət enerji daşıyıcıları bazarında təklifin tələbi üstələməsi və iri dövlətlər tərəfindən neftə olan tələbatın kəskin azalması ilə əlaqədardır. Bu isə inkişafda olan neft ölkələri üçün mənfi təsirlərə rəvac verir. Bu səbəbdən, Azərbaycan iqtisadiyyatı üçün də yeni çağırışlar ortaya çıxıb. Mövcud reallıqlar ölkəmizə valyuta daxil olmasının kəskin azalması və tədiyyə balansının aşağı düşməsinə gətirib çıxarır. Bütün bu amillər dövlət büdcəsinə müəyyən düzəlişlər edilməsi zərurəti yaradır.

Yenidən baxılacaq 2016-cı il icmal büdcəsi üzrə əsas dəyişikliklər barədə danışan nazir bildirib ki, 2016-cı il üçün icmal büdcənin gəlirləri 15 milyard 738,6 milyon manat nəzərdə tutulur ki, bu da təsdiq edilmiş büdcəyə nisbətən 981,5 milyon manat və ya 5,9 faiz azdır. Azalma, əsasən, bir barel xam neftin qiymətinin təsdiq edilmiş proqnozla müqayisədə 2 dəfə aşağı götürülməsi və bunun nəticəsində Dövlət Neft Fondunun gəlirlərinin 3 milyard 230,3 milyon manat azalması hesabınadır.

2016-cı il üçün dəqiqləşdirilmiş dövlət büdcəsinin gəlirlərinin strukturu və əsas mənbələri barədə də danışan maliyyə naziri vurğulayıb ki, hesablamalar zamanı xam neftin satış qiymətinin bir bareli üçün 25 ABŞ dolları götürülməsi, müvafiq olaraq, dövlət büdcəsinin gəlirlərində neft sektorundan daxilolmaların azalması ilə nəticələnib. 2016-cı il üçün dövlət büdcəsinin dəqiqləşdirilmiş gəlirləri 16 milyon 822 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş variantla müqayisədə 2 milyard 256 milyon manat çoxdur. Dövlət büdcəsinin daxilolmalarının tərkibində qeyri-neft sektoru üzrə büdcə gəlirləri 7 milyard 597 milyon manat nəzərdə tutulur. Bu, 2015-ci ilin icra göstəricisi ilə müqayisədə 659,2 milyon manat və ya 4,8 faiz çoxdur.

2016-cı ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 10 milyon manat daxilolma nəzərdə tutulur. Bu da 2016-cı il üzrə keçən il təsdiq olunmuş əvvəlki proqnozdan 408 milyon manat və ya 6,2% çoxdur.

İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov diqqətə çatdırıb ki, müəyyən sosial tədbirlərin maliyyə təminatı üçün dəqiqləşdirilmiş dövlət büdcəsinin xərclərində əlavə olaraq 1 milyard 290 milyon manat vəsait nəzərdə tutulub. Bununla da dövlət büdcəsində sosialyönümlü xərclərin xüsusi çəkisi 1,7 faiz artaraq 37,8 faiz təşkil edəcək. Onun sözlərinə görə, Dövlət Gömrük Komitəsinin xətti ilə təmin edilən dəqiqləşdirilmiş daxilolmaların proqnozu isə 1 milyard 810 milyon manat təşkil edir ki, bu da təsdiq edilmiş proqnozla müqayisədə 220 milyon manat çoxdur. Digər gəlirlər üzrə daxilolmalar isə 75 milyon manat proqnozlaşdırılır. Bu göstərici 2016-cı ilin təsdiq edilmiş proqnozuna nisbətən 13 milyon manat və ya 21 faiz çoxdur. Artıma səbəb ötən illərdə xarici valyuta ilə verilmiş kreditlər üzrə daxilolmaların manatın yeni məzənnəsi ilə hesablanmasıdır.

Müzakirələrdə çıxış edən Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, millət vəkilləri Vahid Əhmədov, Xanhüseyn Kazımlı, Əli Məsimli, İlham Əliyev, Mahir Abbaszadə, Aydın Həsənov 2016-cı ilin dövlət büdcəsinə təklif olunan dəyişikliklərin mövcud qlobal iqtisadi gərginlikdən maksimum az zərərlə çıxmaq üçün çox əhəmiyyətli olduğunu bildiriblər.

Dünən Milli Məclisin plenar iclasında «Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında» Qanunda dəyişikliklər təsdiqlənib.

*2016-cı ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 10 milyon manat daxilolma nəzərdə tutulur. Bu da 2016-cı il üzrə keçən il təsdiq olunmuş əvvəlki proqnozdan 408 milyon manat və ya 6,2% çoxdur*

**Rəşad SADIQOV**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2016-cı ilin yanvar ayında:**

- Ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən **4011,2 milyon** manatlıq ümumi daxili (ÜDM) məhsul istehsal edilmişdir. ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi **418,3** manata bərabər olmuşdur.
- Əsas kapitala **880,7 milyon** manat məbləğində vəsait yönəldilmişdir ki, onun da **772,0 milyon** manatı (87,6%-i) məhsul istehsalı obyektlərinin, **65,7 milyon** manatı (7,5%-i) xidmət sahələri üzrə obyektlərin, **43,0 milyon** manatı (4,9%-i) isə ümumi sahəsi **133,7 min** kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.
- Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən **2112,8 milyon** manatlıq sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı **0,3%** artmış, neft sektorunda isə **3,5%** azalmışdır.
- İstehlakçılara **2243,2 milyon** manatlıq və ya 2015-ci ilin eyni ayı ilə müqayisədə **4,3%** çox məhsul satılmışdır.
- İnformasiya və rabitə müəssisələri hüquqi və fiziki şəxslərə **130,4 milyon** manatlıq xidmət göstərmişdir ki, onların da **71,6%**-i əhali sektoruna aid olmuşdur.

# İnvestisiyalar təşviq edilir

**Prezident İlham Əliyevin bu günlərdə imzaladığı fərmana əsasən, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun təsdiq edilib. Sənədin ən mühüm müddəalarından biri investisiya təşviqi sənədini almış hüquqi şəxslərdən və fərdi sahibkarlardan vergitutmanın müəyyən edilməsi ilə bağlıdır. Dövlət başçısı Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və aktlarının «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanununa uyğunlaşdırılmasının təmin edilməsi barədə müvafiq tapşırıqlar verib. Qanuna əsasən, investisiya təşviqi sənədi - investisiya fəaliyyətini həyata keçirən hüquqi şəxslərə və fərdi sahibkarlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydaya uyğun olaraq verilən, Vergi Məcəlləsinin 102.1.23-cü, 106.1.17-ci, 164.1.26-cı, 199.11-ci və 207.5-ci maddələrində (Məcəllənin 67-2-ci maddəsi nəzərə alınmaqla) və «Gömrük tarifi haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş güzəştlərin əldə edilməsinə əsas verən sənəddir. Vergi Məcəlləsinin 67-2 maddəsinə əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxslərdən və fərdi sahibkarlardan vergitutmanın mexanizmləri müəyyənləşib.**

***İnvestisiya təşviqi sənədi nədir və hansı şəxslər bu sənədi əldə edə bilərlər?***

İqtisadiyyat Nazirliyinin Strateji planlaşdırma və proqnozlaşdırma şöbəsinin müdiri Yalçın Əzizovun sözlərinə görə, investisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Bu sənədin verilməsində əsas məqsəd «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»na uyğun olaraq, investisiyaların təşviqi ilə bağlı mexanizmin gücləndirilməsidir. Hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Prezident İlham Əliyevin imzaladığı «İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» fərmana əsasən, hüquqi şəxslərə və fərdi sahibkarlara investisiya təşviqi sənədinin verilməsi İqtisadiyyat Nazirliyinə həvalə olunub. Nazirlik fərmanın icrasından irəli gələn məsələlərin həll edilməsini yaxın günlərdə başa çatdıracaq. «İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası»na əsasən, bu sənədi almaq istəyən sahibkarlar müvafiq fəaliyyət sahələri ilə bağlı meyarlara cavab verməlidirlər. Onlar tərəfindən həyata keçirilən investisiya ilə bağlı iqtisadi fəaliyyət sahəsi (biznes planı), investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ, layihənin həyata keçiriləcəyi inzibati ərazi vahidləri və digər komponentlər tələblərə uyğun olmalıdır. Tələblərə görə, sahibkar investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğin 10 faizinin müvafiq investisiya layihəsi üzrə sərmayə kimi qoyulduğunu təsdiq edən sənədi, eləcə də onun vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surətini də təqdim etməlidir. Həmin sənədlər və ərizə formaları İqtisadiyyat Nazirliyinə təqdim olunduqdan sonra nazirliyin müvafiq komissiyası müraciətə 5 iş günü müddətində baxacaq. İnvestisiya layihəsi meyarlara tam cavab verdiyi halda məqbul sayılacaq və bundan sonra investisiya təşviqi sənədi həmin şəxsə təqdim ediləcək. Bununla yanaşı, nazirlik tərəfindən investisiya təşviqi sənədi almış sahibkarlar barədə 3 gün ərzində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə məlumatlar veriləcək.

Dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini aldığı andan fərdi sahibkarın əldə etdiyi gəlirin, hüquqi şəxsin isə əldə etdiyi mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad olunacaq.

Bundan əlavə, sənədi almış hüquqi şəxslər və fərdi sahibkar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının bu sənədi aldıqları andan 7 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad ediləcəklər. Sənədi almış şəxs vergi güzəştlərinin tətbiq edildiyi dövrdə investisiya layihəsinə aid olmayan fəaliyyət göstərdikdə isə həmin fəaliyyətlə bağlı gəlirlərin və xərclərin uçotu ayrıca aparılacaq. Həmin fəaliyyət sahəsi üzrə sahibkarın əldə etdiyi gəlirlərdən vergilər Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qayda əsasında ödəniləcək.

İnvestisiya təşviqi sənədinin olması sahibkarlar üçün Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlərlə bərabər, «Gömrük tarifi haqqında» Qanunla müəyyən olunmuş güzəştlər də nəzərdə tutur: investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar, eləcə də sənaye texnoparklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə 7 il müddətinə gömrük rüsumlarından da azad ediləcəklər.

Y.Əzizovun qeyd etdiyinə görə, investisiya təşviqi sənədi almış şəxslər bundan sonrakı dövrdə fəaliyyətlərini təqdim etdikləri layihənin tələblərinə uyğun şəkildə həyata keçirməli, sərmayələrin artırılması istiqamətində mühüm işlər görməlidirlər. Onların həyata keçirdikləri layihədə investisiyaların təşviqi sahəsində müsbət dəyişikliklər baş verməyəcəyi təqdirdə və ya layihədə göstərilən meyarlar pozulduğu halda, sənəd ləğv ediləcək. Həmin sahibkar barəsində isə 3 gün ərzində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə məlumat veriləcək.

**Elbrus CƏFƏRLİ**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Gəlir vergisi

***Əmək məzuniyyəti ilə bağlı ödənilmiş məbləğdən gəlir vergisi hansı qaydada tutulur?***

Vergi Məcəlləsinin 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Vergi Məcəlləsinin 101.1-ci maddəsinə görə, muzdla işləyən fiziki şəxslərin aylıq gəlirinin 2500 manatadək olan hissəsindən 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat əlavə edilsin 2500 manatdan çox olan məbləğin  25 faiz dərəcəsi ilə vergi tutulur.

Vergi Məcəlləsinin 102.1.6-cı maddəsində qeyd edilmişdir ki, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30000 manatadək olduqda isə ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azaddır.

Vergi Məcəlləsinin 150.3.1-ci maddəsinin müddəalarına əsasən, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və sahibkarlar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamağa və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürməyə borcludurlar.

Vergi Məcəlləsinin 150.1.1-ci və 150.1.2-ci maddələrinə uyğun olaraq, ödəmə mənbəyində vergi tutan ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri ödəmə mənbəyində tutulan vergilər barədə Vergilər Nazirliyinin müəyyən etdiyi formada bəyannaməni vergi orqanına hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq verməyə borcludurlar (Vergi Məcəlləsi, maddə 150.3.3.2).

ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla, Vergi Məcəlləsinin 150.1.1-ci və 150.1.2-ci maddələrinə uyğun olaraq, ödəmə mənbəyində vergi tutan digər vergi ödəyiciləri ödəmə mənbəyində tutulan vergilər barədə Vergilər Nazirliyinin müəyyən etdiyi formada bəyannaməni vergi orqanına rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq verməyə borcludurlar (Vergi Məcəlləsi, maddə 150.3.3.3).

Vergi Məcəlləsinin qeyd olunan müddəalarına əsasən, əmək məzuniyyətinin günləri müxtəlif aylara təsadüf etdiyi halda, məzuniyyət haqqının hər aya düşən hissəsi həmin aylar üçün hesablanan əməkhaqqı məbləği ilə cəmlənməklə hər ay üzrə ayrılıqda gəlir vergisi hesablanır və hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq büdcəyə ödənilir.

# «ASAN imza» biznesin ayrılmaz hissəsidir

Azərbaycanın innovativ mobil identifikasiya texnologiyası olan «ASAN imza» istənilən yerdə və istənilən zaman sadəcə mobil telefon və PIN-kodun köməyi ilə əməliyyatların onlayn həyata keçirilməsi üçün nəzərdə tutulan ən sadə və təhlükəsiz alətdir. 2013- cü ilin may ayından istifadəyə verilən bu xidmət ölkəmizdə mövcud qanunvericiliyin bütün tələblərinə tam uyğun gələn yeganə mobil elektron imza hesab edilir.

«ASAN imza» gücləndirilmiş elektron imza vasitəsi olduğundan, onunla imzalanan sənədlər ölkə qanunvericiliyinin tələblərinə görə, əl ilə edilmiş imzaya bərabərdir. Təhlükəsizlik baxımından isə identifikasiya və rəqəmsal imzalama yüksək səviyyəli texnologiya və müvafiq PIN-kodlar vasitəsilə qorunur. «ASAN imza» ilə haker hücumuna məruz qala biləcək və ya pozula biləcək parol məlumat bazaları mövcud deyil. ID hər zaman istifadəçi ilə birlikdədir və uzaq məsafədə yerləşən məlumat bazasında saxlanılmır. Bu isə təhlükəsizlik üçün zəmanət yaradır.

Mobil operatorlar tərəfindən 3 növ elektron imza təqdim olunur:

- fiziki şəxslər (vətəndaşlar) üçün elektron imza sertifikatları;
- hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün elektron imza sertifikatları;
- dövlət qulluqçuları üçün «ASAN imza» SİM kartı.

Fiziki şəxslərə verilən elektron imza kartı şəxsi istifadə üçün nəzərdə tutulmuşdur. Hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin dövlət qulluqçuları üçün nəzərdə tutulan elektron imza sertifikatları kommersiya və ya dövlət təşkilatını təmsil etmək və onun adından çıxış etmək səlahiyyətləri verir.

Bu xidmətdən istifadə etmək üçün müraciət edən şəxs, ilk növbədə, mobil operatorlardan «ASAN imza» SİM kartını əldə etməli, sonra tələb olunan sənədlərlə və «ASAN imza» SİM kartı ilə birlikdə Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etməlidir. ASXM-də ərizəçi tərəfindən təqdim olunmuş sənədlərin düzgünlüyü yoxlanılır. Təqdim edilmiş sənədlər düzgün olduqda, müraciət etmiş şəxslə ASXM arasında yazılı müqavilə bağlanılır və ona sertifikat verilir, sənədlər düzgün və ya tam olmadıqda isə sertifikatın verilməsindən imtina edilir. ASXM sertifikatın verilməsi üçün ərizəçi ilə müqavilə bağlamazdan əvvəl onu sertifikatın və imza vasitələrinin istifadə qaydaları, ASXM-in hüquqi statusu və akkreditə vəziyyəti barədə məlumatlandırır. Hazırlanmış sertifikat kağız daşıyıcıda və elektron formada ərizəçiyə təqdim edilir. «ASAN imza» sertifikatı 1 iş günü ərzində verilir.

Vergilər Nazirliyi və mobil operator tərəfindən verilən bu imza bütün mövcud e-xidmətlərdən istifadəni mümkün edir. Fəaliyyət göstərdiyi müddət ərzində ölkədə 450-dən artıq dövlət və özəl e-xidmətlər «ASAN imza» istifadəçiləri üçün açıq olub və ümumilikdə 10 milyonadək əməliyyat icra edilib. www.e-gov.az və www.e-taxes.gov.az portallarında «ASAN imza» ilə həyata keçirilən əməliyyatlara nəzər salsaq görərik ki, 2013-cü ildə aparılan əməliyyatların böyük qismi www.e-taxes.gov.az portalı vasitəsilə həyata keçirilmişdirsə, sonrakı illərdə www. e-gov.az portalının da bu istiqamətdə fəallığı müşahidə olunub. 2013-cü ildə www.e-taxes.gov.az saytı vasitəsilə həyata keçirilən əməliyyatlar 99,999% olduğu halda, 2014-cü ildə bu göstərici 55,48%, 2015-ci ildə 59,95% təşkil edib. www.e-gov.az portalı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə göstəricilər isə 2013-cü ildə 0,001%, 2014-cü ildə 44,52%, 2015-ci ildə 40,05% olub.

Son statistik məlumatlara əsasən, ötən ilin dördüncü rübü ərzində Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən 11568 ədəd sertifikat verilib. Bunlardan 5760-ı «şəxsi», 5311-i «iş», 497-si isə «dövlət və bələdiyyə» sertifikatlarıdır. Ümumilikdə isə indiyədək verilən «ASAN imza» sertifikatlarının sayı 190579 olub. Bunlardan 93639-u «şəxsi», 89209-u «iş», 7731-i isə «dövlət və bələdiyyə» sertifikatlarıdır.

**AYTƏN**

Vergilər Nazirliyinin ASAN Sertifikat Xidmətləri Mərkəzi tərəfindən 2015-ci ilin IV rübü ərzində verilən sertifikatlar




e-taxes.gov.az və e-gov.az portallarında Asan İmza ilə əməliyyatlar




# Qiymətli kağızlar bazarında vahid ticarət sistemi

Qiymətli kağızlar bazarında vahid ticarət, ticarətsonrası və nəzarət sisteminin açılış mərasimi keçirilmişdir. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin aparat rəhbəri Bəxtiyar Əzizov bildirmişdir ki, istifadəyə verilən sistemin yaradılması kapital bazarlarının müasirləşdirilməsi layihəsi (KBML) çərçivəsində həyata keçirilmişdir. Əsas məqsəd bazar iştirakçıları arasında elektron interfeysin yaradılması, ümumilikdə bazarın işləmə səmərəliliyinin artırılması və risklərin idarə olunması proseslərinin təkmilləşdirilməsidir.

Azərbaycan hökuməti, Dünya Bankı və İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) tərəfindən maliyyələşdirilən KBML hərtərəfli və çoxşaxəli proqramdır. Qeyd edilmişdir ki, yeni sistemin yaradılması bu layihənin bazar infrastrukturunun sadələşdirilməsi və avtomatlaşdırılması əsasında həyata keçirilir.

Layihənin icrasında tərəfdaş olan Koreya Respublikasının ölkəmizdəki səfiri Kim Çanq-Gyu bildirmişdir ki, bu layihə təkcə qiymətli kağızlar bazarının deyil, bütövlükdə ölkə iqtisadiyyatının inkişafı üçün çox önəmli hadisədir: «Layihə eyni altay dil ailəsinə malik olan Azərbaycan və Koreya xalqları arasında əməkdaşlığın və uzunömürlü dostluq tellərinin daha da möhkəmləndirilməsinə gətirib çıxaracaqdır».

İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin nümayəndəsi Elxan Mikayılov mərasim iştirakçılarının diqqətinə çatdırmışdır ki, bu sistem neftin qiymətinin aşağı düşməsi və Azərbaycanda yeni qeyri-neft sektorunun diversifikasiyası şəraitində kapital bazarının stimullaşdırılmasına böyük təkandır: «Kapital bazarında özəlləşdirmə sahəsində bir neçə dövlət qurumu iş aparır və bu müəssisələr üçün xarici investisiyaların cəlb olunması mühüm əhəmiyyət kəsb edir».

*Yeni sistem neftin qiymətinin aşağı düşməsi və Azərbaycanda yeni qeyri-neft sektorunun diversifikasiyası şəraitində kapital bazarının stimullaşdırılmasına böyük təkandır*

Sistem öz funksionallığı, iş prinsipi, elektron interfeysi, həmçinin yeni ticarət imkanları baxımından əvvəlkindən tamamilə fərqlənir. Bu sistem sayəsində ticarətin ədalətli və şəffaf təşkili, hesablaşmaların effektiv icrası, risklərin idarə edilməsi, bazarın qorunması və dayanıqlığının təmin olunması üçün əlverişli zəmin yaranır.

Qabaqcıl texnologiyalar sayəsində investisiya şirkətləri gələcəkdə müştəriləri üçün bilavasitə ticarətdə iştirak imkanları - investor terminalları yarada biləcəklər. Bundan əlavə, yeni ticarət sistemi qabaqcıl fond bazarları təcrübəsinə əsaslanan ədalətli və şəffaf qiymətin formalaşmasına yönəlmiş müasir ticarət üsullarının tətbiqi, abunə yazılışı qaydasında ilkin kütləvi təklifin keçirilməsi, ünvanlı satışın təşkili, ticarət imkanlarını artıran yeni sifariş növləri və sifariş şərtlərinin tətbiqi üçün şərait yaradır.

Dövlət müəssisələrinin özəlləşdirilməsinin kapital bazarı istiqrazları hesabına həyata keçirildiyini vurğulayan Dünya Bankının nümayəndəsi Anjela Priqojina qeyd etmişdir ki, qiymətli kağızlara vahid nəzarət sistemi kapital bazarının inkişaf etdirilməsi deməkdir. Bank sektorundakı çətinliklər baxımından da kapital bazarının inkişafı vacibdir: «Yeni ticarət sistemi qabaqcıl fond bazarları təcrübəsinə əsaslanan ədalətli və şəffaf qiymətin formalaşmasına yönəldilmiş müasir ticarət üsullarının tətbiqi, abunə yazılışı qaydasında ilkin kütləvi təklifin keçirilməsi, ünvanlı satışın təşkili, ticarət imkanlarını artıran yeni sifariş növləri və sifariş şərtlərinin tətbiqi üçün şərait yaradır».

**Fəxriyyə İKRAMQIZI**

# Uçot dərəcəsi manatın sabitliyini təmin etmək üçün artırılıb

*Mərkəzi Bankın İdarə Heyətinin 15 fevral 2016-cı il tarixli qərarı ilə bank sektoru üçün uçot dərəcəsi 3 faizdən 5 faizə yüksəldilib, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin aşağı həddi 2%, yuxarı həddi isə 10% səviyyəsində müəyyən edilib.*

Mərkəzi Bank (MB) tərəfindən kommersiya banklarının kreditlə təmin edilməsi rejimi adlanan «uçot dərəcəsi» siyasəti müxtəlif dövrlərdə ölkənin maliyyə-valyuta-pul vəziyyətinə uyğun tənzimlənir. Kommersiya banklarına verilən borclar üzrə faiz dərəcəsi valyuta bazarında baş verən dəyişikliklərə uyğun olaraq, endirilib-qaldırılır.

İqtisadçı Oqtay Məmmədovun fikrincə, beynəlxalq praktikaya əsasən, milli valyutaların devalvasiyasından sonra inflyasiya təzyiqlərini azaltmaq üçün mərkəzi banklar uçot dərəcəsini qaldırır. Bazar iqtisadiyyatının hökm sürdüyü ölkələrin əksəriyyətinin qanunvericiliyində mərkəzi bankın bu dərəcəni inzibati qaydada dəyişmək hüququ vardır: «İqtisadi konyunkturada baş verən dəyişikliklərə reaksiya olaraq, mərkəzi bank uçot dərəcəsini azaldıb-artıra, buna müvafiq olaraq pul təklifini də azaldıb-artıra bilər. Enerji daşıyıcıları qiymətlərinin yüksək olduğu dövrlərdə Azərbaycan manatının həddindən artıq möhkəmlənməsi zamanı MB uçot dərəcələrinin aşağı salınması strategiyasına üstünlük verirdi. 2012-ci ildən başlayaraq uçot dərəcələri aşağı salınırdı və ötən ilin iyul ayında bu rəqəm 3% təşkil edirdi. Manatın devalvasiyasından sonra bazarda tam başqa proseslər baş verdi və qlobal maliyyə sarsıntıları şəraitindəki dəyişikliklər MB-ni digər istiqamətdə strateji addımlar atmağa məcbur etdi. Son dövrlər maliyyə-valyuta bazarındakı vəziyyətə uyğun uçot dəhlizinin də yenidən müəyyənləşməsinə ehtiyac yaranmışdı».

İqtisadçı hesab edir ki, uçot dərəcəsinin artırılmasının kredit bazarına və yığımlara, demək olar ki, heç bir ciddi təsiri olmayacaq. Çünki uçot dərəcəsi 3-3,5% olduğu dövrlərdə belə banklar istehlak kreditlərini yüksək faizlə təqdim edirdilər. Son 5 ildə uçot dərəcələri bir neçə dəfə dəyişsə də, ölkənin kredit bazarında bankların kredit faizləri artmayıb, əksinə, yüksəlib: «Banklar vətəndaşlara kreditləri uçot dərəcəsinin ən yüksək olduğu (5,25%) 2011-ci ildə də 22-25 faizlə verirdilər, 2009-cu ildə ən aşağı (2%) uçot dərəcəsinin olduğu zaman da. Yəni həmin vaxtlar uçot dərəcəsi ilə kredit faizləri arasındakı fərq 12-13 dəfə təşkil edirdi, halbuki bankların istehlak kreditləri dərəcələri ilə uçot dərəcəsi arasındakı fərqin 3 dəfə olması normal kredit tənzimləməsi həyata keçirməyə imkan verir. Bu onu göstərir ki, kommersiya bankları normal bazar münasibətlərinə uyğun kredit siyasəti aparmırlar».

Bəzi iqtisadçılar isə bu qərarın kreditlərin bahalaşmasına səbəb olacağı qənaətindədirlər. İqtisadçı Rəşad Əliyev hesab edir ki, uçot dərəcəsinin 5 faizə qaldırılması daşınmaz əmlak bazarına təsir edəcək və ipoteka kreditlərinin faizləri artacaq: «Güzəştli ipoteka kreditləri dövlət büdcəsindən maliyyələşdirildiyi üçün onlar üzrə faizlər uçot dərəcəsindən az asılı idi. Ancaq kommersiya banklarının özlərinin verdiyi ipoteka kreditləri üzrə faizlər uçot dərəcələri ilə birbaşa bağlıdır.  Uçot dərəcələrinin artırılması İpoteka Fondunun ucuz pul vəsaitlərini cəlb etməsinə mane olacaq. Bəzi banklar öz ipoteka kreditləri üzrə faiz dərəcələrini mövcud olan 8 faizdən aşağı salmağı düşünürdü, lakin bundan sonra onların bu imkanı məhdudlaşacaq».

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, dövlət tərəfindən milli valyutada olan istiqrazların xarici valyutadakı istiqrazlarla müqayisədə daha yüksək gəlirliliklə yerləşdirilməsi manatın yığım vasitəsi kimi daha geniş istifadəsinə müsbət təsir göstərir. Çünki milli valyutaya etimadı gücləndirmək, manat depozitlərinin artmasını təşviq etmək, eləcə də pul bazarında formalaşmış konyunkturaya uyğun olaraq pul siyasəti alətlərinin təkmilləşdirilməsinə şərait yaratmaq kimi amillər uçot faizlərinə də yenidən baxılması zərurətini meydana çıxarmışdı. Mərkəzi Bank makroiqtisadi sabitliyin və dayanıqlılığın təmin olunmasına yönəldilmiş tədbirləri davam etdirərək yeni məzənnə rejiminə uyğun əməliyyat çərçivəsini tətbiq etməyə qərar verdi. İqtisadi tənzimləmədə ən təsirli addımlardan biri uçot dərəcəsinin artırılması yolu ilə inflyasiyanı nəzarətdə saxlamaqdır və bu addım qiymət artımına qarşı ən güclü tədbirlərdən biridir. Ona görə də bu qərarın ölkədə makroiqtisadi göstəricilərin proqnozuna və ortamüddətli dövrdə dayanıqlı qiymət sabitliyinə nail olunması məqsədi daşıdığını qeyd etmək olar.

*İqtisadi tənzimləmədə ən təsirli addımlardan biri uçot dərəcəsinin artırılması yolu ilə inflyasiyanı nəzarətdə saxlamaqdır və bu addım qiymət artımına qarşı ən güclü tədbirlərdən biridir*

**Elbrus CƏFƏRLİ**

# Xocalı soyqırımı – insanlığa qarşı cinayət

«1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdular. Tariximizə «Xocalı soyqırımı» kimi həkk olunan bu faciə yüzlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı. Xocalı faciəsi - Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycan xaıqına qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş təzahürüdür».

Heydər ƏLİYEV

Ümummilli lider Heydər Əliyevin Xocalı faciəsi ilə bağlı etdiyi tarixi çıxışındakı bu fikirlərin də sübut etdiyi kimi, mənfur qonşumuz - ermənilər tarixin müxtəlif dövrlərində xalqımıza, dövlətimizə qarşı insanlıqdan uzaq olan bütün vasitələrdən istifadə etmişlər. Ermənilərin Azərbaycan xalqına qarşı ən dəhşətli cinayətlərindən biri də 1992-ci ilin 25 fevralından 26-na keçən gecə Xocalı sakinlərinə qarşı törətdiyi vəhşiliklər, soyqırımı hadisəsidir. Əslində, həmin gecə insanlıq hissini itirmiş erməni daşnakları keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının vəhşiləşmiş hərbçiləri ilə birgə təkcə Azərbaycan xalqına deyil, bütövlükdə bəşəriyyətə, insanlığa qarşı soyqırımı həyata keçirmiş, yüzlərlə dinc insan - yaşlı, uşaq və qadın bir neçə saatın içində öldürülmüş, onlara qarşı ən dəhşətli işgəncə və təhqiramiz əməllər həyata keçirilmişdir. Bu faciə inanılmaz dərəcədə dəhşətli faktlara, miqyasına və mahiyyətinə görə tarixdə Xatın, Lidisa, Oradur kimi soyqırımlarla, bəşəriyyətə qarşı törədilmiş cinayətlərlə birgə xatırlanır.

24 il əvvəl baş vermiş həmin müdhiş gecədə məqsədli və əvvəlcədən planlaşdırılmış şəkildə 613 nəfər amansızcasına qətlə yetirilmiş, cinayətkarlar hətta meyitlərin təhqir edilməsindən belə çəkinməmiş, insanların baş, qol və digər bədən üzvlərini kəsmiş, başlarının dərisini soymaqdan özlərini saxlaya bilməmişlər. Bir çox meyitlərin gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə dəlik-deşik edilmiş, meyitlər insanlığa ləkə gətirəcək şəkildə təhqir edilmişdir.

Həmin müdhiş gecədə qətlə yetirilənlərdən 83-ü uşaq, 106-sı qadın, 70-i isə qoca idi. Qətliam nəticəsində 8 ailə tamamilə yer üzündən silinmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Həmin dəhşətli hadisədə 487 nəfər yaralanmış, 1275 nəfər girov götürülmüş, 150 nəfər itkin düşmüşdür. İtkin düşənlərin çoxunun, girov götürülənlərin bəzisinin isə aqibəti hələ də məlum deyildir.

Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımlarından biri kimi Azərbaycan xalqının qan yaddaşına yazılmışdır. Bu dəhşətli qırğın daim Azərbaycan torpaqlarına göz dikən ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq məqsədilə xalqımıza qarşı yeritdikləri məkrli siyasətin daha bir qanlı səhifəsidir.

Təəssüflə qeyd etməliyik ki, bu faciəyə zəminin, şəraitin tədricən bir neçə ay əvvəldən yaradılmasına baxmayaraq, o dövrdə Azərbaycana rəhbərlik edən şəxslər lazımi tədbirlər görməmiş, ən azı, faciənin miqyasının kiçildilməsinə çalışmamışlar. Məhz belə məsuliyyətsiz davranışların, baş verənlərə biganə yanaşmanın məntiqi nəticəsi olaraq, dinc, əliyalın Xocalı sakinləri təpədən dırnağa kimi silahlanmış erməni vəhşiləri və rus hərbçiləri ilə üz-üzə qalmış, nəticədə faciənin miqyası belə böyük olmuşdur. Faciə baş verdikdən sonra da paytaxtda hakimiyyət uğrunda mübarizə dayanmamış, əksinə, bu fürsətdən istifadə olunaraq ölkədə hakimiyyət dəyişikliyi prosesi başlanmışdı. O dövrün üzdəniraq rəhbər şəxsləri Xocalı faciəsinə biganə yanaşır, dəhşətli, dözülməz vəziyyətə düşən xocalılara dövlət tərəfindən hər hansı kömək edilmir, faciəyə siyasi-hüquqi qiymət verilməsi istiqamətində heç bir əməli fəaliyyət göstərilmirdi.

Məhz ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bir çox problemlərimiz kimi, Xocalı soyqırımına da dövlət səviyyəsində münasibət bildirildi, ulu öndərin rəhbərliyi altında bu faciəyə düzgün siyasi-hüquqi qiymət verildi, faciənin səbəbkarları və iştirakçıları aydın şəkildə göstərildi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Xocalı hadisəsi Milli Məclisdə müzakirə olundu və ölkə Prezidentinin sərəncamı ilə 26 fevral «Xocalı faciəsi günü» elan edildi. Məhz Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli fərmanı, bununla yanaşı beynəlxalq insan haqları haqqında aktlar, BMT nizamnaməsi, beynəlxalq hüququn ümumqəbul edilmiş prinsipləri, Azərbaycan Respublikası Cinayət Məcəlləsi ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımının beynəlxalq cinayət kimi tanınmasına tam əsas yaradır.

Beynəlxalq hüququn tələblərinə görə beynəlxalq cinayətlərə görə məsuliyyətə cəlbetmə müddətinin tətbiq olunmaması isə ona dəlalət edir ki, indiyədək erməni vandallarının xalqımıza qarşı həyata keçirdikləri beynəlxalq cinayətlərdən, o cümlədən Xocalı soyqırımından nə qədər müddət ötsə də, həmin cinayətləri törətmiş şəxslər məsuliyyətdən yayına bilməzlər.

Beynəlxalq hüquq normalarına görə, soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Beynəlxalq hüquq soyqırımı cinayəti anlayışını müəyyən etməklə yanaşı, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdirir. Belə ki, həmin prinsiplərə görə, soyqırımı cinayətini törətməkdə təqsirli olan şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayıbsa, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidirlər.

Ümummilli lider Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan dövlətinin inkişaf strategiyasını uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də hakimiyyətə gəldiyi ilk gündən beynəlxalq miqyasda Xocalı faciəsinin birmənalı şəkildə soyqırımı aktı kimi tanınması üçün əlindən gələni edir. Heydər Əliyev Fondu, xüsusilə Fondun vitse-prezidenti Leyla Əliyeva tərəfindən başladılan və Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə dəqiq, qərəzsiz və bütün gerçəklikləri ilə çatdırılmasında mühüm əhəmiyyət daşıyan «Xocalıya ədalət!» kampaniyası erməni vəhşiliklərinin mahiyyəti və miqyası haqda dolğun təsəvvür formalaşmasında ciddi rol oynayır. Məhz bu fəaliyyətin nəticəsidir ki, bu gün bir çox dövlətlərin parlamentləri ermənilərin insanlığa qarşı törətdiyi amansız qətliamı - Xocalı faciəsini azərbaycanlılara qarşı soyqırımı hadisəsi kimi qəbul edirlər. 51 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, ardınca Pakistan İslam Respublikası və Meksika parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatları Xocalı faciəsini soyqırımı kimi tanıyıblar.

Prezident İlham Əliyevin «Düşünürəm ki, müstəqil, güclü və demokratik Azərbaycan dövlətinin mövcudluğu və getdikcə inkişaf etməsi Xocalı şəhidlərinin ruhuna təsəlli ola bilər», - fikirləri və bu amalın daha uğurla reallaşması istiqamətindəki ardıcıl və qətiyyətli fəaliyyəti qeyd etdiyimiz fikri bir daha təsdiq edir.

Ulu öndər Heydər Əliyevin səsləndirdiyi «Nahaq qan yerdə qalmır. Xocalı müsibətinin də beynəlxalq aləmdə öz qiymətini alacağı və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağı təbiidir», - müdrik sözləri bütün azərbaycanlılar üçün bir mayak rolunu oynayır və gələcəyə sonsuz ümid, inam yaradır.

**Anar ƏLİYEV**

# Daşınmaz əmlakın qiymətləndirilməsinə başlanılıb

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən daşınmaz əmlak bazarında mühüm yeniliyə start verilib. Komitə tərəfindən vətəndaşlara fiziki və hüquqi şəxslərə ölkə ərazisində mülkiyyət növündən asılı olmayaraq daşınmaz əmlakın qiymətləndirilməsi xidməti göstərilir. Ölkə başçısının 4 may 2015-ci il tarixli fərmanı ilə təsdiqlənmiş Əmlak Məsələləri Dövlət Komitəsin yeni Əsasnaməsinə görə, ölkə ərazisində mülkiyyət növündən asılı olmayaraq bütün daşınmaz əmlakın qiymətləndirilməsini aparmaq və bu sahədə nəzarəti həyata keçirmək komitəyə həvalə edilib. Bu xidmətdən istifadə etmək üçün ƏMDK-nın Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin (DƏDRX) ərazi idarələrinə müraciət etmək kifayətdir. Bu müraciətlər əsasında hər növ daşınmaz əmlakın bazar qiyməti müəyyən ediləcək.

Komitədən bildirilir ki, qiymətləndirmə DƏDRX-nın peşəkar mütəxəssisləri tərəfindən həyata keçirilir. Qiymətləndiricilər bir sıra beynəlxalq sertifikatlar alıblar. Qiymətləndirmə prosesi milli və beynəlxalq qiymətləndirmə standartlarının tələblərinə uyğun şəkildə aparılır. Reyestr xidmətində bütün növ daşınmaz əmlaklar barədə atributiv bazar göstəricilərini özündə ehtiva edən məlumat bankı yaradılıb. Bu bankda 400 mindən artıq daşınmaz əmlak barədə məlumatlar toplanıb. Həmçinin, özəl qiymətləndiricilər tərəfindən həyata keçirilən qiymətləndirmə işlərinin ekspertizası da aparılır.

Qeyd edək ki, xidmətdə daşınmaz əmlakın qiymətləndirilməsi ilə bağlı həyata keçirilən bütün əməliyyatlar üçün ödənişlər Tarif Şurasının 31 iyul 2009-cu il tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş tariflərə uyğun olaraq tənzimlənir. Bu əməliyyatlara qiymətləndirmənin aparılması, məlumat bankından məlumatların verilməsi, ekspertizanın aparılması aiddir. İstənilən hüquqi və fiziki şəxs DƏDRX-nin müvafiq ərazi idarələrinə müraciət edərək bu xidmətdən istifadə edə bilərlər.

**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında dəmir yolu konsorsiumunun yaradılmasına dair razılıq əldə olunub.

2016-cı ilin yanvar ayında Azərbaycana xarici investisiya qoyuluşları ötən ilin eyni dövrü ilə müqayisədə 49% artıb.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən əmlakın qiymətləndirilməsi ilə bağlı yeni xidmət istifadəyə verilib.

Azərbaycanın ikinci peykinin layihələndirilməsi üzrə işlərə başlanılıb.

Bakıda Türk Dünyası Mühəndislik, Memarlıq və Şəhərsalma Qurultayı keçiriləcək.

AZPROMO Türkmənistanın Ticarət və Sənaye Palatası ilə birgə əməkdaşlıq barədə müqavilə imzalayıb.

Çin Xalq Respublikası Azərbaycanda pambıqçılığın inkişafına dəstək göstərəcək.

İran şirkəti Azərbaycanda dərman istehsalı müəssisəsi inşa edəcək.

Bələdiyyələr Bakı şəhərində kənd təsərrüfatı yarmarkaları təşkil edəcəklər.

Kənd təsərrüfatının ümumi məhsulu 1,8%, o cümlədən bitkiçilik məhsulları istehsalı 4,7%, heyvandarlıq məhsulları istehsalı 1,7% artmışdır.

# Ünvanlı sosial yardımın tətbiqi ilə bağlı yeniliklər

*Nazirlər Kabineti «Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları»nı təsdiq edib. Yeni Qaydalara əsasən, ölkə ərazisində yaşayan və müraciətdən əvvəlki son 12 ay ərzində orta aylıq gəliri müəyyən səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr ehtiyac meyarının məcmusu ilə orta aylıq gəlirinin arasındakı fərq məbləğində sosial yardım almaq hüququna malikdirlər.*

Səbəblər bunlardır:

- ailə üzvünün əmək qabiliyyətini itirməsi;
- əmək qabiliyyəti olan ailə üzvünün birinci qrup əlilə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq etməsi;
- ailənin əmək qabiliyyətli 23 yaşadək üzvünün əyani təhsil alması;
- Dövlət Məşğulluq Xidmətinin yerli orqanında işsiz kimi qeydə alınması;
- ailə üzvünün vəfat etməsi;
- ailə üzvünün məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi;
- ailə üzvünün azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması.

Ünvanlı sosial yardım almaq üçün ailəni təmsil edən yetkinlik yaşına çatmış əmək qabiliyyətli şəxs, belə şəxs olmadıqda isə ailə üzvü olmayan qəyyum, köməkçi və ya vəkil edilmiş şəxs sosial yardımın alınması üçün müraciət edə bilər. Bu barədə ərizə yaşayış yeri üzrə rayon icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin ailə tərkibi haqqında arayışına əsasən notariat orqanı tərəfindən təsdiq edilir. Müraciət nümayəndə tərəfindən edildikdə, şəxsin qəyyum və ya köməkçi olmasını təsdiq edən sənədin surəti arayışa əlavə olunmalıdır.

Yeni qaydalar sosial yardımın alınması üçün vətəndaşlara elektron şəkildə müraciət etmək imkanı da verir. Sosial yardımın alınması üçün elektron formada müraciət edən təmsilçi fərdi kommunikasiya vasitələrindən, eləcə də bu məqsədlər üçün xüsusi olaraq quraşdırılmış infoköşklərdən istifadə etməklə müraciətini həyata keçirə bilər. Elektron formada müraciətin qeydiyyata alınması məqsədilə təmsilçi «Elektron hökumət» və ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) «Elektron xidmətlər» portalında yerləşdirilmiş «Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi» elektron xidmətindən istifadə etməklə «Ərizə-bəyannamə»ni dolduraraq Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminə (VEMTAS) göndərməlidir.

Sosial yardımın alınması üçün kağız üzərində müraciət edildikdə isə şəxs notariat orqanı tərəfindən təsdiq edilmiş «Ərizə»ni və «Ərizə-bəyannamə»ni təmsilçinin yaşayış yeri üzrə Dövlət Sosial Təminat Xidmətinin rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzinə təqdim etməlidir. Kağız üzərində edilən müraciət mərkəz tərəfindən qəbul olunduqdan sonra bu barədə təmsilçiyə müvafiq bildiriş təqdim ediləcək. Müraciət qanunvericiliyin tələblərinə uyğun olduğu halda, qeyd olunan məlumatlar qəbul olunduğu gün VEMTAS-a daxil edilərək gücləndirilmiş elektron imza ilə təsdiqlənəcək, əks halda, uyğunsuzluq barədə məlumat rəsmən 1 iş günü müddətində təmsilçiyə bildiriləcək.

Elektron formada göndərilmiş müraciət qeydiyyata alındıqdan sonra istifadəçinin ekranına, kağız üzərində göndərilmiş müraciət qeydiyyata alındıqdan sonra isə təmsilçinin «Ərizə-bəyannamə»də qeyd etdiyi əks-əlaqə vasitələrinin birinə VEMTAS tərəfindən bu barədə məlumat göndəriləcək. Sosial yardımın alınması məqsədilə müraciətlərə baxılması üçün ailələrə dair məlumatlar «Elektron hökumət» portalı üzərindən aidiyyəti qurumların informasiya resurslarından elektron qaydada əldə ediləcək və məlumatlar ümumiləşdirilərək təhlil olunduqdan sonra sosial yardımların təyinatı da avtomatlaşdırılmış şəraitdə həyata keçiriləcək. Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 2 il müddətinə təyin olunacaq.

***Sosial yardımın verilməsindən imtina***

Sosial yardımın təyin olunmasından imtina aşağıdakı hallarda mümkün olacaq:

- sosial yardım üçün müraciətdən əvvəlki ardıcıl gələn 12 ay ərzində ailənin orta aylıq gəliri hər bir ailə üzvü üçün ehtiyac meyarına bərabər və ya məcmusundan yuxarı olduqda;
- sosial yardım üçün müraciətdən əvvəlki ardıcıl gələn 12 ay ərzində respublika üzrə təsdiq edilmiş yaşayış minimumunun 12 mislindən çox məbləğdə alğı-satqı etdikdə;
- ailənin mülkiyyətində və ya istifadəsində nəqliyyat vasitəsi olduqda;
- ailənin əmək qabiliyyətli, işləməyən üzvü Dövlət Məşğulluq Xidmətinin yerli orqanı tərəfindən təklif olunmuş iki münasib işdən imtina etdikdə;
- ailənin adambaşına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləği ölkə üzrə təsdiq olunmuş yaşayış minimumunun 10 faizindən çox olduqda;
- ailənin mülkiyyətində müxtəlif ünvanda 2 və daha çox eyni təyinatlı daşınmaz əmlak olduqda.

Sosial yardım təyin edilərkən ailənin tərkibində - tam dövlət təminatında olan şəxslər, müddətli həqiqi hərbi xidmətdə olan şəxslər, cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər, axtarışda olan şəxslər, ölkə ərazisində yaşamayan Azərbaycan vətəndaşları və əcnəbilər nəzərə alınmayacaq.

***Sosial yardımın verilməsinin dayandırılması***

Yeni Qaydalara əsasən, təmsilçi vəfat etdikdə, ailənin tərkibində və gəlirində sosial yardım məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar baş verdikdə və ya sosial yardım ailə tərəfindən ardıcıl gələn 3 ay müddətində alınmadıqda sosial yardımın verilməsi dayandırılacaq və ailənin sosial yardım almaq hüququna yenidən baxılacaq. Sosial yardımın ailə tərəfindən ardıcıl gələn 3 ay müddətində alınmaması üzrlü səbəbdən baş verdikdə, verilmə dayandırıldığı aydan bərpa ediləcək. Ailəyə ev, mənzil və nəqliyyat vasitəsi bağışlandığı hallarda, sosial yardımın verilməsi həmin halın baş verdiyi gündən dayandırılacaq.

ƏƏSMN-dən verilən məlumata görə, artıq nazirlikdə yeni Qaydaların tətbiqi məsələləri ilə əlaqədar müvafiq sahədə çalışan əməkdaşlar üçün təlim-seminarlara başlanılıb. Məqsəd rayon (şəhər) əhalisinin sosial müdafiəsi mərkəzlərinin müvafiq əməkdaşlarının yeni Qaydaların tətbiqi ilə bağlı bilik səviyyələrini artırmaq, onların praktik bacarıqlarının formalaşdırılmasıdır.

**A.NƏBİYEVA**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Mühafizə xərclərinin auditi

Təsərrüfat subyektlərində sahibkarlıq fəaliyyəti zamanı inzibati (sahibkarlığın idarə edilməsi ilə əlaqədar) xərclərin tərkib hissəsi kimi, çəkilən xərclərdən biri də mühafizə xərcləridir. Hətta mənfəət vergisi bəyannaməsinin xərclər hissəsində mühafizə xərcləri barəsində xüsusi sətir (göstərici yeri) nəzərdə tutulmuşdur ki, bu da həmin xərclərin diqqət tələb edən olması ilə əlaqədardır. Audit zamanı mühafizə xərclərinin təsnifat üzrə düzgün müəyyənləşdirilməsi, sənədləşdirilməsi və aidiyyəti qanunvericilik baxımından bu xərclərin düzgün təşkil edilməsi yoxlanılmalıdır. Ümumiyyətlə, «mühafizə xərcləri» anlayışının təhlil edilməsinə ehtiyac vardır. Təsərrüfat subyektlərinin (müəssisələrin və ya fərdi sahibkarların) mühafizə xərclərinə aşağıdakıları aid etmək olar:

- daşınmaz amlakın (binaların, tikililərin, qurğuların, torpaq ərazilərinin və sair sahələrin) hüquqazidd qəsdlərdən mühafizə edilməsi (qorunması) xərcləri;
- daşınar əşyaların (nəqliyyat vasitələrinin, avadanlıqların, pul vəsaitlərinin, qiymətli əşyaların və s.) hüquqazidd qəsdlərdən mühafizə edilməsi xərcləri;
- şəxslərin və ya nəqliyyat vasitələrinin mühafizə olunan obyektə girişinə və çıxışına, obyektə hər hansı əmlakın (müəyyən qaydalarla qadağan olunmuş əşyaların) gətirilməsi və ya bu obyektdən əmlakın (əşyaların) çıxarılmasına nəzarət edilməsi ilə bağlı xərclər. Yəni mühafizə olunan obyektlərdə buraxılış rejimlərinin təmin edilməsi xərcləri;
- mühafizə olunan obyektin hüdudlarında müəyyən edilən qayda və tədbirlərə uyğun mühafizənin təmin edilməsi xərcləri. Yəni mühafizə olunan obyektlərdə obyektdaxili rejimlərin təmin edilməsi xərcləri;
- mühafizə olunan obyektlərdə təhlükəsizlik siqnalizasiyası avadanlıqlarının layihələşdirilməsi, quraşdırılması və istismarı ilə əlaqədar texniki xidmətlərin göstərilməsi xərcləri;
- hüquqazidd qəsdlərdən mühafizə məsələləri ilə bağlı fiziki və hüquqi şəxslərə tövsiyələrin hazırlanması və verilməsi xərcləri.

Bu siyahıya fiziki şəxslərin yarana biləcək fiziki-canlı təsirlərdən qorunması, yəni cangüdənlik xərclərini də aid etmək olar. Ölkəmizdə mühafizə xidmətlərinin həyata keçirilməsi «Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa (10 aprel 2007-ci il, № 266-IIIQ) uyğun həyata keçirilməlidir. Qanuna görə, mühafizə xidmətləri yalnız bu məqsədlə təsis edilmiş, müvafiq xüsusi razılıq (lisenziya) almış özəl mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsi tərəfindən həyata keçirilə bilər. Bu baxımdan, təsərrüfat subyektləri özünün biznes istiqamətində mühafizəsinin təmin edilməsi üçün özəl mühafizə xidmətləri göstərən hüquqi şəxslərə müraciət etməlidir. Belə aydın olur ki, qanunvericilik fiziki şəxslərə mühafizə və ya cangüdənlik istiqamətində fərdi qaydada fəaliyyət göstərməyi dolayısı ilə qadağan edir. Yəni mühafizəsini təşkil etmək istəyən fiziki və hüquqi şəxslərin fiziki şəxs qismində özəl mühafizəçi və ya mühafizə dəstəsi yaratması qanunla yol verilmir. Qanuna görə, mühafizəçi - xüsusi hazırlıq keçmiş, bu qanunla müəyyən edilmiş qaydada özəl mühafizə müəssisəsində və ya hüquqi şəxsin mühafizə bölməsində əmək müqaviləsi (kontraktı) ilə işləyən Azərbaycan Respublikasının vətəndaşı ola bilər. Deməli, təsərrüfat subyektlərində mühafizəçi olmaq istəyən fiziki şəxslər özəl mühafizə müəssisəsinin işçiləri (əməkdaşları) olmalıdır. Özəl mühafizə müəssisəsi mühafizə xidmətlərinin göstərilməsi üçün təsərrüfat subyektləri ilə mülki qanunvericiliklə və bu qanunla müəyyən edilmiş qaydada yazılı formada müqavilə bağlamalıdır, həmçinin özəl mühafizə müəssisəsi göstərdiyi xidmətlərin təhvil-təslim haqqında aktını tərtib edərək təsərrüfat subyektinə (sifarişçisinə) təqdim edə bilər.

Hazırda cəmiyyətimizdə daha çox diqqət mərkəzində olan və ya zəngin şəxslər özəl olaraq canlı mühafizədən, yəni cangüdənlərin xidmətlərindən istifadə edirlər. Hətta elə müəssisə rəhbərləri vardır ki, cangüdən xidmətlərindən istifadə etmək məcburiyyətindədir. Sual oluna bilər ki, belə rəhbər və ya sahibkar fiziki şəxlər üçün çəkilən cangüdən xərcləri müəssisənin (və ya fərdi sahibkarın) mühafizə xərclərinə aid edilə bilərmi? Müəssisənin (və ya fərdi sahibkarın) uçot siyasətində nəzərdə tutulduğu halda, mühasibat məqsədləri üçün belə cangüdən xərclərini mühafizə xərcləri kimi qəbul etmək olar. Vergi məqsədləri üçün cangüdən xərclərinin gəlirdən çıxılan xərclərə aid edilməsi nəzərdə tutulmayıb. Çünki bu xərclərin gəlirin əldə edilməsinə bağlılığı nə birbaşa, nə də dolayısı ilə vardır. Qeyd edək ki, «Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda xüsusi olaraq «cangüdənlik» haqqında hər hansı müddəa və ya məzmun yoxdur. Ona gorə də «cangüdən» xərclərinin məhz «mühafizə» xərcləri ilə eyniliyini müəyyən etmək çətindir.

Əslində, təsərrüfat subyektləri mühafizə üçün özəl mühafizə xidmətləri göstərən hüquqi şəxslərə müraciət etməlidir. Buna baxmayaraq, müşahidələr onu deməyə əsas verir ki, mühafizə xərcləri çəkən əksər təsərrüfat subyektlərində fərdi qaydada fiziki şəxslərin mühafizəçilik və ya cangüdənlik xidmətlərindən istifadə olunur. Yəni müəssisə ilə əmək müqaviləsi bağlamaqla həmin fiziki şəxs «gözətçi», «nəzarətçi» və digər oxşar vəzifə adları altında işə götürülür. Lakin onun əmək funksiyasına mühafizə sahəsində müvafiq qanunla müəyyənləşdirilən fəaliyyətlərin həyata keçirilməsi tapşırığının aid edilməsi qanunazidd hərəkət hesab olunur.

# Sintetik uçotun aparılması ilə bağlı yeni Qayda

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli qərarı ilə «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası» təsdiq edilmişdir. Bu Qayda «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli fərmanına uyğun olaraq hazırlanmışdır. Qayda kredit təşkilatları istisna olmaqla mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edən mühasibat uçotu subyektlərinə şamil edilir. Bu Qayda təşkilatlar tərəfindən mühasibat uçotunun sintetik uçotunun memorial order forması əsasında aparılmasını müəyyən edir. Həmçinin, «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, mühasibat uçotunu sadələşdirilmiş uçot qaydalarına uyğun aparan mühasibat uçotu subyektləri də bu Qaydadan istifadə etmək hüququna malikdir. Eyni zamanda, sintetik uçotun memorial order formasını (əl ilə və ya avtomatlaşdırılmış rejimdə) tətbiq etməyən təşkilatlar mühasibat uçotunun sintetik uçotunu digər formalar (jurnal-order forması və ya digər avtomatlaşdırılmış) əsasında həyata keçirmək hüququna malikdirlər. İcra hakimiyyəti orqanları sintetik uçotun aparılması ilə əlaqədar digər formaların tətbiqini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirir.

Qaydada təşkilatlarda tətbiq edilən yeni memorial order formaları, yığım cədvəli, Baş Kitab, Dövriyyə Balansı haqqında, onların məzmunu, tərkibi və tərtib olunması haqqında, təşkilatlarda kassa əməliyyatları üzrə, bank əməliyyatları üzrə, əmək haqqı, pul təminatı və ona bərabər tutulan ödənişlər üzrə, təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə, ehtiyatlar üzrə, qeyri-maddi aktivlər, torpaq, tikili və avadanlıqlar, daşınmaz əmlaka investisiyalar, bioloji aktivlər, təbii sərvətlər, digər uzunmüddətli aktivlər və sair uzunmüddətli qeyri-maliyyə aktivləri üzrə, xidmətlər və işlər üzrə, fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə sintetik uçotun aparılması qaydaları açıqlanmışdır.

Qaydada göstərilən anlayışlara görə, memorial order forması - baş vermiş maliyyə-təsərrüfat əməliyyatlarının ilkin uçot sənədlərinə uyğun olaraq xronoloji ardıcıllıqla müxabirləşmələrin verilməsi ilə tərtib edilən sintetik uçotun aparılması formasıdır; yığım cədvəli - dövr ərzində xronoloji ardıcıllıqla eyni tipli əməliyyatlar üzrə tərtib edilmiş memorial orderlərin nəticələrini sistemləşdirən uçot registridir; baş kitab - təşkilat tərəfindən istifadə olunan bütün sintetik hesablar üzrə qruplaşdırılmış məlumatları özündə əks etdirən və sintetik uçotun memorial order forması əsasında aparılması zamanı məlumatların icmallaşdırılmasını təmin edən nəzarətedici uçot registridir; dövriyyə balansı - hesablar və subhesablar üzrə dövrün əvvəlinə və sonuna qalıqları, habelə dövr ərzində onların debet və kredit üzrə dövriyyələrini özündə əks etdirən uçot registridir.

Qəzetin növbəti saylarında bu Qaydada daha çox açıqlanmasına ehtiyacı olan məsələlərə, o cümlədən praktik misallar üzərində formaların doldurulması haqqında izahlarımızı təqdim edəcəyik.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

İdris Çingiz oğlu Kərimov sahibkarlıq fəaliyyətinin müxtəlif növləri ilə məşğul olduqdan sonra təmir-tikinti sahəsində də «özünü sınamağa» qərar vermişdi. Bu məqsədlə «Təchizat-Təmir-Tikinti-2013» Məhdud Məsuliyyətli Cəmiyyətini (MMC) təsis etmiş və özəl şirkətlər, səhmdar cəmiyyətləri və dövlət müəssisələri arasında xeyli sifarişçi cəlb edə bilmişdi. Həmin təşkilatlara təmir xidmətləri göstərməklə yanaşı, onları tikinti-təchizat materailları ilə də təmin edirdi.

Lakin İ.Kərimovun biznesinin ən həssas nöqtəsi vergi ödəməyə məsuliyyətsiz yanaşması, mövcud qanunvericiliyə məhəl qoymaması idi. Fəaliyyət göstərdiyi gündən dövlətin vergilərini ödəməyə «barmaqarası» baxan MMC direktoru sonda törətdiyi qanunsuzluqların ciddi cəzasını çəkməli oldu.

Vergi orqanlarının apardıqları yoxlamalar zamanı İdris Kərimovun təqdim etdiyi vergi bəyannamələrində gəlir və xərclərin bilə-bilə təhrif olunduğu, mühasibat sənədlərinin tamamilə saxtalaşdırıldığı aşkar edildi. MMC-nin dövlət büdcəsindən yayındırdığı vergilərin məbləği 8.067,11 manat təşkil edirdi. Baş vermiş vergi pozuntularına dair toplanmış materiallar Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim olundu. Departament tərəfindən aparılan ciddi araşdırmalardan sonra MMC-də Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.6, 16.1.7, 72, 78.1, 129, 130, 149, 151, 155, 157, 168, 173, 174, 177, 180.1 və 218-221-ci maddələrinin tələblərinin pozulması faktları üzrə CM-in 213.1-ci maddəsi ilə cinayət işi başlandı və İdris Kərimov barəsində başqa yerə getməmək haqqında həbs qətimkan tədbiri seçildi.

İş üzrə şahid qismində dindirilmiş sifarişçi təşkilatların nümayəndələri «Təchizat-Təmir-Tikinti-2013» MMC ilə aparılan sövdələşmələrin müvafiq sənədlər və hesablaşma qaimələrini istintaq orqanlarına təqdim etdilər. Təqsirləndirilən şəxs qismində dindirilən İ.Kərimov CM-in 213.1-ci maddəsi ilə elan olunmuş ittihamda özünü təqsirli bilərək vergi ödənişlərindən mənimsədiyi vəsaitləri şəxsi məqsədləri üçün istifadə etdiyini bildirdi. Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında MMC direktorunun törətdiyi cinayət əməlləri tam sübuta yetirildi.

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hökmü ilə İdris Çingiz oğlu Kərimovun iki il islah işlərinə cəlb edilməsinə dair qərar çıxarıldı.

**ELBRUS**




## vergi təqvimi

**FEVRAL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | | | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

1 fevral – «(10.1)»
16 fevral - «(5)»
22 fevral - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.2», «10.3»

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə) İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə) - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Yaponiya yığımları rekord həddə çatdırmağı planlaşdırır



Yaponiyanın Maliyyə Nazirliyi bir maliyyə ili ərzində rekord məbləğdə - 62,6 trilyon yen (533,77 milyard dollar) vergi yığmaq və qarşıdakı beş il ərzində bu göstəricini 70 trilyon yenə çatdırmaq niyyətindədir. Hökumət rəsmiləri bunun mövcud büdcə kəsirini tarazlaşdırmağa yardım edəcəyinə ümid bəsləyirlər.

Bu göstəriciyə 2017-ci ilin aprelində satışdan verginin 10%-dək artırılması, eləcə də gələn maliyyə ilində istiqrazların buraxılmasının azaldılmasına şərait yaradacaq iqtisadi artım sayəsində nail olunacağı proqnozlaşdırılır. Mütəxəssislərin rəyinə görə, hətta iqtisadi artımın 1,5% olacağı halda belə, 2017-ci maliyyə ilində vergi daxilolmaları 61,6 trilyon yen (525,24 milyard dollar) təşkil edəcək.

# Aqressiv vergi planlaşdırması barədə araşdırmanın nəticəsi açıqlanıb

Avropa Komissiyasının nəşr etdirdiyi yeni araşdırmada beynəlxalq korporasiyalar üçün Avropa İttifaqında vergilər üzrə vergi planlaşdırmasının daha aqressiv olmasına şərait yarada biləcək boşluqlar nəzərdən keçirilmişdir. Aqressiv vergi planlaşdırmasının araşdırılması müstəqil podratçı tərəfindən aparılmışdır. Araşdırmada transmilli şirkətlərin ayrı-ayrı vergi sistemlərində əlaqələndirmənin olmamasından öz vergi ödənişlərini azaltmaq üçün necə sui-istifadə edə biləcəkləri ətraflı şərh edilmişdir. Araşdırmaya praktiki misallarla yanaşı, hər bir üzv dövlət üçün əsas nəticələrin ümumiləşdirildiyi informasiya bülletenləri də daxildir.

Nəşr olunmuş araşdırmanın ön sözündə qeyd edilmişdir ki, Avropa Komissiyası «vergi qanunvericiliyi və Avropa İttifaqının üzvü olan, sərt vergi planlaşdırmasının müəyyən yurisdiksiyasına məruz qala biləcək dövlətlərin təcrübələri ilə bağlı bilik səviyyəsinin yüksəldilməsinə güclü tələbat olduğunu görür».

Araşdırmaya əsasən, Avropa İttifaqına üzv dövlətlərdən 14-ü xarici şirkətləri nəzarətdən kənarda qoymuşdur, 13-ü isə gəlir vergisinin azaldılması və ya bu vergidən azad olunması barədə iddianı qəbul edərkən heç bir tədbir görməmişdir. 28 üzv dövlətdən 25-i digər ölkələrin vergi qanunvericiliyi ilə uyğunsuzluğun aradan qaldırılması ilə bağlı hər hansı ölçü götürmür.

Araşdırmada qeyd edilmişdir ki, üzv dövlətlərin, demək olar ki, hamısında vergidən yayınma ilə bağlı ümumi və ya konkret qaydalar olsa da, aqressiv vergi planlaşdırmasının qarşısının alınmasında bu qaydalar «yalnız qismən effektiv ola bilər».

## Xəbər lenti

**Yunanıstan** hökuməti milli pensiya sistemi resurslarının azalmasının qarşısını almaq məqsədilə gəlir vergisini və sosial təminat haqlarını artırmaq niyyətindədir.

**İtaliya**nın Ticarət Təmsilçilərinin Milli Konfederasiyası son iyirmi ildə ölkədə vergilərin orta məbləğinin 92,4% artdığını elan edib. Ekspertlərin rəyinə görə, Hindistanda əhalinin yalnız 3 faizi vergiləri vicdanla ödəyir. Aylıq qazancı 21 rupidən (306 dollar) artıq olanlardan vergi tutulur, kiçik sahibkarlar, həkim və hüquqşünaslar, eləcə də varlı fermerlər isə vergidən yayınmağa üstünlük verirlər.

**Çin**in Dövlət Şurasının iclasında qabaqcıl texnologiyalar sahəsində ixtisaslaşmış şirkətlər üçün 15 faizlik korporativ vergi dərəcəsi tətbiqinin müddətinin uzadılması barədə qərar qəbul olunub. Əvvəllər bu sahə üzrə korporativ vergi dərəcəsi 25 faiz idi.

**Estoniya**nın Vergi İdarəsi tərəfindən toplanılmış yığımların məbləği 2015-ci ildə 480 milyon avrodan çox artaraq 7,1 milyard avroya çatmışdır ki, bu da 7,3% artım deməkdir.

**«Financial Times»** nəşrinin məlumatına görə, ABŞ konqresmenləri Avropa İttifaqını Amerika şirkətləri üçün «düşmən» mühit yaratmaqda günahlandırıblar. Avropa Komissiyasının təmsilçiləri isə vergidən yayınmaya qarşı apardıqları mübarizədə antiamerikanizmin olduğu barədə ittihamı qəti şəkildə təkzib ediblər.
Hazırda ABŞ şirkətlərinin vergidən yayındırmaq üçün xaricdə saxladıqları pulun məbləği 1,1 trilyon dollar qiymətləndirilir və bu vəsaitin böyük hissəsi «Apple», «Microsoft», «Google», «Cisco» və «Oracle» kimi nəhənglərin payına düşür.

qalmaqal

## «Harri Potter» vergidən yayınmağa vasitəçilik edib

Böyük Britaniya kütləvi informasiya vasitələrində yayılmış məlumata görə, Şotlandiyanın Kral Bankı (Royal Bank of Scotland, RBS) illər uzunu sehrbaz Harri Potter haqqında çəkilən silsilə filmlərə investisiya qoymaqla vergi ödəməkdən yayınıb.




Yayılan xəbərlərdə deyilir ki, Britaniya qanunvericiliyində kinematoqrafiyaya investisiya qoyan şirkətlər üçün nəzərdə tutulan güzəştlərdən sui-istifadə etmək məqsədilə bank gənc sehrbaz haqqında filmin üçüncü və dördüncü hissələrinin müəlliflik hüququnu satın alıb. Bundan sonra filmin yayım hüququ onun prokatını həyata keçirən studiyaya keçib və buna qarşılıq olaraq studiya banka ödəniş edib. Beləliklə, filmin kommersiya uğurundan asılı olmayaraq, bank onun həm prokatından gəlir əldə edib, həm də vergi güzəştlərindən istifadə edib.

Bu sxem Kral Bankına 1,45 milyard dollar mənfəət gətirib. Harri Porter haqqında filmlərdən əlavə, bank 20-dək başqa populyar filmdən də kommersiya məqsədilə istifadə edib.

Xatırladaq ki, Kral Bankı buna oxşar fırıldağa 1998-2007-ci illərdə də əl atmışdı, lakin o vaxt Böyük Britaniyada vergi qanunvericiliyi hələ indiki qədər sərtləşdirilməmişdi.

Qeyd edək ki, Britaniya yazıçısı xanım Coan Roulinqin sehrbaz Harri Potter haqqında səkkizinci kitabı iyulun 31-də Kanadada, Böyük Britaniyada və ABŞ-da satışa çıxarılacaq.

## İtaliyada «Zibil vergisi» 55% artırılıb

Ölkədə son beş il ərzində tullantıların utilizasiyası üçün tətbiq olunan vergilərin artırılması müəssisələr tərəfindən də ödənişlərin artımı ilə müşayiət olunmuşdur. Bu müddət ərzində vergilərin ümumi məbləği 3 milyard avro artaraq, 2015-ci ildə 8,37 milyard avroya çatmışdır. İtaliya Ticarət Konfederasiyasının rəyinə görə, bununla «tullantıların əmələ gəlməsinin əhəmiyyətli şəkildə azalmasına baxmayaraq», yerli şirkətlərə vergi təzyiqi artırılmışdır.

Ekspertlər «zibil vergisinin» ödənilməsində ölkənin müxtəlif regionları arasındakı kəskin fərqi də qeyd etmişlər. Onların rəyinə görə, bu, qeyri-effektiv idarəetmə və yerlərdəki nəzarətin yarıtmazlığı ilə bağlıdır.

Ətraf mühitin mühafizəsi ilə məşğul olan qurumlar isə hökumətdən resurslardan səmərəli istifadəyə yönəldilmiş «Stabillik haqqında» Qanunun normalarına əməl olunmasını tələb etmişlər.

maraqlı

## Vergi idarəsi futbol federasiyası ilə əməkdaşlığa dair sazişin müddətini uzatdı

İtaliyanın Vergi İdarəsi ilə ölkənin Milli Futbol Federasiyası arasında vergi protokolu imzalanmış və peşəkar klubların vergi işlərinə nəzarət agentliyinin fəaliyyətinin gücləndirilməsi məqsədi daşıyan sazişin müddətinin uzadılması barədə razılaşma əldə olunmuşdur.



İlk dəfə 2008-ci ildə imzalanmış sazişin müddəti daha bir il - 2017-ci il fevralın 28-nə qədər uzadılmışdır. Hər iki tərəf klubların öz vergi öhdəliklərini yerinə yetirib-yetirmədiyini təsdiq etmək üçün vergi orqanlarına zəruri olan informasiyaları açıq şəkildə mübadilə etməyə razılaşmışlar. Sazişdə vergilərlə əlaqədar informasiya sirrinə təminat yaratmaq üçün məxfilik haqqında müddəa da var.

İtaliya Milli Futbol Federasiyası agentliyə gəlirlər üzrə peşəkar futbol klublarının korporativ detallarının siyahısını, eləcə də klubların ƏDV ödənişləri kodlarını verəcək. Bundan sonra agentlik 2016-cı il iyunun sonunda federal və regional mənfəət vergisi və ƏDV, həmçinin 2014-cü il dekabrın 31-də başa çatmış vergi ili üzrə oyunçuların fərdi gəlir vergisi üzrə illik qiymətləndirmənin nəticələrini federasiyaya təqdim edəcək. Bundan əlavə, nəzarət agentliyi klubların ƏDV üzrə illik bəyannamələrdə göstərilmiş ödənişləri həyata keçirib-keçirmədiklərini də yoxlayacaq. Qeyd edək ki, bəyannamələr bu il martın 31-dək təqdim olunmalıdır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Allahın düşməninə çevrilmiş, insanları düz yoldan azdırmağa çalışan mələk; 2.Nobel tərəfindən ixtira edilmiş partlayıcı maddə; 3.Dərk etmək. Həmçinin Bakıda lisey adı; 4.Yunanıstanda mövcud olmuş qədim dövlət; 5.Ayaq geyimi; 6.Fransız filosof, riyaziyyatçı, fizik, fizioloq və yazıçı; 9.Astara rayonunda kənd; 13.Ənənəvi Asiya sisteminə əsaslanan fiziki tapşırıqların (tətbiqlərin, məşqlərin) sırası; 15.ABŞ-da şəhər. «Coca-Cola»nın vətəni; 16.Bioloji termin. Hüceyrənin sadə bölünməsi; 17.İspaniya və Portuqaliya kral sülalələrində bütün şahzadələrin titulları; 18.Qara ciyərdən hazırlanmış qəlyanaltı; 20.Azərbaycan faunasında geniş yayılmış ağac; 21.Quranda adı çəkilən peyğəmbər, Musa peyğəmbərin böyük qardaşı.

**Soldan sağa:** 1.Fərman Kərimzadənin «Qarlı aşırım» povestinin qəhrəmanlarından biri, «Qırmızı tabor»un komandiri; 5.Mərkəzi Afrikada dövlət; 7.Bakı şəhəri yaxınlığında təbii qazın çıxması nəticəsində alovlanan, tarixi bilinməyən təbiət abidəsi; 8.Döş qəfəsində yerləşən əzələvi üzv; 10.Türk və monqollarda nəsli-tayfa birliyi forması; 11.Uzun müddət ərzində iki mümkün dayanıqlı tarazlıq vəziyyətindən birində ola və xarici idarəedici siqnalın təsiri ilə sıçrayışla bir vəziyyətdən digərinə keçə bilən qurğu; 12.Almaniyada şəhər (Bavariya); 14.Culfa rayonunda kənd; 19.Böyük göllər qrupuna daxil olan göl (ABŞ-da yerləşir); 21.Ölkəmizdə və Yaxın Şərqdə geniş yayılmış şirniyyat növü; 22.Misin qalay, alüminium, berillium və digər kimyəvi elementlərlə ərintisi; 23.Himayədarlıq; 24.Kəlbəcər rayonunda kənd; 25.Orduda və ya qoşun hissələrində təsərrüfat və təchizat işlərinə baxan hərbi qulluqçu.



*Bakı şəhəri yaxınlığında təbii qazın çıxması nəticəsində alovlanan, tarixi bilinməyən təbiət abidəsi*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Okport; 2.Tonaşen; 3.Orion; 4.Sviter; 5.Troya; 6.Fiskal; 9.Ftor; 13.Arfa; 15.Abordaj; 16.Abaran; 17.Eskarp; 18.Snurre; 20.Nazim *(Hikmət)*; 21.Knarr. **Soldan sağa:** 1.Ostrovski; 5.Tuf; 7.Pontifik; 8.Boks; 10.Roşen; 11.Estrada; 12.Ancaq; 14.Orqan; 19.Benefis; 21.Kloun; 22.Rozo; 23.Badamdar; 24.Nom; 25.Zaporojye.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

idman

# Dünya «Challenge» Kuboku yarışları başa çatdı

Fevralın 21-də Azərbaycanda ilk dəfə təşkil olunan idman gimnastikası üzrə Dünya «Challenge» Kuboku yarışlarına yekun vurulub. Milli Gimnastika Arenasında keçirilən yarışlarda 19 ölkədən 46 kişi və 22 qadın gimnast ayrı-ayrı alətlər üzrə medallar uğrunda mübarizə aparıb.

- Kişilərin gimnastika atı yarışlarında yaponiyalı Tomomasa Haseqava qızıl medala layiq görülüb.

- Qadınların dayaqla tullanma yarışlarında isə Olimpiya, Dünya və Avropa çempionu, özbəkistanlı atlet Oksana Çusovitina fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Azərbaycan gimnastı Mariya Smirnova yarışları səkkizinci pillədə başa vurub.




- Kişi gimnastların halqa ilə yarışlarında Azərbaycan atleti Oleq Stepko bürünc medal qazanıb. Türkiyəli İbrahim Çolak birinci olub.

- Qadınlar arasında müxtəlif hündürlüklü qollarda yarışda Almaniya təmsilçisi Lina Filip fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Azərbaycan gimnastı Yuliya İnşina səkkizinci olub.

- Kişilərin dayaqla tullanma yarışlarında Azərbaycan gimnastı Oleq Stepko gümüş medala sahib olub. Yaponiyalı gimnast Kenzo Şirai fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

- Qadınların gimnastik tiri yarışlarında Braziliya təmsilçisi Flavia Lopes qalib adını qazanıb. Azərbaycan atleti Marina Nekrasova isə dördüncü olub.

- Kişilərin paralel qollarda yarışlarında Azərbaycan idmançısı Oleq Stepko qızıl medala sahib olub.

- Qadınların sərbəst hərəkətlər yarışlarında Braziliya təmsilçisi Flavia Lopes fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Azərbaycan gimnastı Marina Nekrasova isə üçüncü pillədə qərarlaşıb.

- Kişilər arasında sərbəst hərəkətlər üzrə yarışların final mərhələsində Yaponiya gimnastı, üççat dünya çempionu Kenzo Şirai Dünya Kuboku yarışlarının qızıl medalını qazanıb. Azərbaycan gimnastı Petro Paxnyuk sərbəst hərəkət yarışlarını altıncı pillədə başa vurub.

- Kişilərin turnikdə yarışlarında yaponiyalı Tomomasa Haseqava qalib olub.

Sonda Azərbaycan Gimnastika Federasiyasının «AGF Trophy» mükafatı yaponiyalı Kenzo Şirai və özbəkistanlı Oksana Çusovitinaya təqdim olunub.

# Sərbəst güləşçilərimiz beynəlxalq Qran-pri turnirində...

Belarusun paytaxtı Minskdə Aleksandr Medvedin mükafatı uğrunda sərbəst və qadın güləşi üzrə böyüklər arasında 46-cı beynəlxalq Qran-pri turniri keçirilib. Yarışda iştirak edən sərbəst güləş üzrə Azərbaycan yığma komandasının üzvləri 1 qızıl və 1 gümüş medala sahib olublar.

Turnirdə 86 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Nurməhəmməd Hacıyev ardıcıl olaraq Rusiya, Macarıstan, Almaniyadan olan rəqiblərinə qalib gəlib. Yarımfinalda London Olimpiadasının bürünc medalçısı Dato Marsaqaşvilidən üstün olan güləşçimiz finala yüksəlib. N.Hacıyev finalda ABŞ təmsilçisini də məğlub edərək turnirin qızıl medalını qazanıb.

Səid Həmidov (125 kq) Özbəkistan, Qazaxıstan və Almaniyadan olan rəqiblərini üstələyərək finala yüksəlib. Lakin finalda Gürcüstan təmsilçisinə uduzan güləşçimiz turnirin gümüş medalına yiyələnib.

# Gənc azərbaycanlı pilotun uğurlu çıxışı

Dubay Avtodromunda «Formula Gulf 1000» (FG1000) seriyasının 9-cu və 10-cu mərhələləri başa çatıb. Azərbaycanın gənc pilotu və Bakıda təşkil olunacaq «Formula-1» üzrə Avropa Qran-prisinin rəsmi elçisi Gülhüseyn Abdullayev hər iki yarışda uğur qazanaraq fəxri kürsüyə yüksələ bilib. G.Abdullayev seriyanın 9-cu mərhələsində ikinci yerin sahibi olub. Onuncu mərhələ üzrə keçirilən yarışda isə ən yaxşı nəticə göstərərək qələbə qazanıb.

2011-ci ildən etibarən Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan FG1000 yarışında artıq beşinci mövsüm keçirilir. Hər mövsüm ərzində 14 yarış təşkil olunur və bu yarışların sonunda ən çox xala sahib olan pilot mövsümün qalibi sayılır. FG1000 yarışının keçirilməsində məqsəd gənc pilotları həm təcrübə, həm də bacarıq baxımından peşəkar avtoidman yarışlarına yüksək səviyyədə hazırlamaqdır.

# Bir oyunda iki rekord




Ulduz futbolçu Kriştianu Ronaldo Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk görüşündə qarşılaşdıqları «Roma» ilə matçda yeni rekordlara imza atıb. Portuqaliyalı futbolçu bu turnirdə qrup mərhələsindən sonrakı turlarda hamıdan çox oyun keçirən oyunçu kimi tarixə düşüb. «Barselona»nın sabiq yarımmüdafiəçisi Xavi Ernandesin rekordunu yeniləyən Ronaldo cavab qarşılaşmasında oynadığı təqdirdə, öz rekordunu yüksəldəcək.Bundan başqa, superulduz ÇL-in pley-off mərhələsində vurduğu qolların sayını 40-a yüksəltməklə liderlik kürsüsünə yüksəlib.

mozaika

## «Sonsuz dəhliz»

camiyyat

Stokholmda ABŞ və Litvanın birgə istehsalı olan, çoxsaylı mükafatlar qazanmış «Sonsuz dəhliz» adlı müstəqil sənədli filmin təqdimatı olub. Filmin nümayişi «Xocalıya Ədalət» kampaniyası çərçivəsində Avropa Azərbaycan Cəmiyyəti tərəfindən təşkil edilib.




Film 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı qurbanlarının xatirəsinə ithaf olunub. Britaniyalı aktyor, BAFTA mükafatçısı Ceremi Ayronz tərəfindən səsləndirilən «Sonsuz dəhliz» sənədli filmi 2015-ci ildə keçirilmiş beynəlxalq premyerasından sonra tamaşaçıların rəğbətini qazanıb.

«Sonsuz dəhliz» filmi Xocalı faciəsinin şahidi olan litvalı jurnalist Riçard Lapaitisin qətliamdan xilas olmuş hadisə şahidləri ilə görüşlərində lentə alınmış xatirələri əsasında çəkilib. Müəllif qətliamdan xilas olmuş, gözləri qarşısında yaxınları qətlə yetirilmiş insanların bu xatirələrlə necə yaşadıqlarını öyrənmək arzusu ilə geri dönüb. Rusiyalı jurnalist Viktoriya İvleva da iki günlük körpəsini həmin qətliamdan xilas edən ana - Mehribanla görüşüb. «Bu hekayələr öz doğma torpaqlarında erməni işğalı nəticəsində həyatları məhv olmuş insanların hekayələridir», - deyə L. Zatter bildirib.

Hüquq müdafiəçisi Andres Qomes bu cür dəhşətli qəddarlıq hadisəsi barədə xəbər tutmaq üçün Dağlıq Qarabağ kimi həll olunmamış münaqişələr barədə ictimaiyyəti məlumatlandırmağın vacibliyini qeyd edib. Smilla Sahlquist isə filmi «Ürəyi yerindən oynadan - ürəyə toxunan sənədli film» adlandırıb: «Bu film insanın vicdanına təsir edir və cavab tələb edir».

Qeyd edək ki, «Sonsuz dəhliz» Madriddə keçirilən Tenerife Beynəlxalq Film Festivalında «Ən yaxşı sənədli film», rejissor Aleksandras Brokas isə «Ən yaxşı sənədli film rejissoru» nominasiyası üzrə qalib elan olunub. Həmçinin, Milan Beynəlxalq Film Festivalında «Ən yaxşı montaj olunmuş sənədli film» nominasiyasında da mükafata layiq görülüb. Film ABŞ-da keçirilmiş «Accolade Qlobal Film Competition» müsabiqəsində də «Best of Show» mükafatını alıb.

Film, həmçinin, Türkiyənin «Kanal 24», «CNN Türk» və «Eurochannel»də nümayiş olunub.

## Siqaretin təbliğinə etiraz

SOS

Dünya Səhiyyə Təşkilatının (DST) nəşr etdirdiyi məruzədə qeyd edilib ki, qəhrəmanların siqaret çəkdikləri epizodların yer aldığı filmlər gənclərdə bu zərərli vərdişə həvəs oyadır. Təşkilat uşaq və yeniyetmələri kino səhnələrində tütün reklamlarından qorumaq üçün hökumətləri tədbir görməyə çağırıb.

World Health Organization

«Siqaret çəkmə səhnəsindən azad kino - sözdən işə keçməli» sərlövhəli tədqiqatda bildirilir ki, tütün məhsullarını nümayiş etdirən filmlər dünyada milyonlarla insanda siqaret çəkməyə həvəs oyadır. DST-nin qeyri-infeksion xəstəliklərin qarşısının alınması departamentinin direktoru Duqlas Betçerin dediyi kimi, «kinolarda siqaret çəkmə tütün məmulatlarının güclü təbliği formasıdır». O qeyd edib ki, tütünün reklamına olduqca sərt məhdudiyyət qoyulduğu üçün «filmlər milyonlarla yeniyetmələrə siqaret çəkmə səhnəsini göstərən son vasitələrdən biridir. DST-nin Tütünə Qarşı Mübarizəyə dair Çərçivə Konvensiyası 180 iştirakçı ölkənin üzərinə «tütünün təbliğini və bu sahəyə sponsorluğa dair reklamı qadağan etmək» öhdəliyini qoyur.

Məruzədə qeyd edilir ki, ABŞ-da aparılan tədqiqatlara görə, ekranlarda siqaret çəkilən səhnələri görən yeniyetmələrin 37 faizində tütünə meyil yaranıb. 2014-cü ildə bu cür səhnələr Hollivudda çəkilən kinoların 44 faizində olub, bu filmlərin 36 faizi yeniyetmələr üçün nəzərdə tutulub. ABŞ səhiyyə orqanlarının hesablamasına görə, siqaret çəkmə səhnələrinin yer aldığı filmlərin ancaq böyüklər üçün nəzərdə tutulduğu barədə xəbərdarlıq olarsa, gənclər arasında bu zərərli vərdişi 20 faiz azaltmaq və gələcəkdə 1 milyon insan ölümünün qarşısını almaq olar.

tabiat

## Gəncənin Xan çinarı

Elmi mənbələrdə əsl adı «Platanus Orientalis» kimi çəkilən Şərq çinarını gəncəlilər Xan çinar adlandırır və şəhərlərinin rəmzi hesab edirlər. Adətən, 1000-1500 il ömür sürən bu ağacların gövdəsinin diametri 12 metrə qədər böyüyə bilir. Əzəmət və ucalıq rəmzi hesab edilən Şərq çinarlarının hündürlüyü 25-30 metrə, bəzi hallarda isə 50 metrə çatır.

Azərbaycan Dövlət Aqrar Universitetinin professoru Zaur Həsənov bildirib ki, ilk baxışdan Gəncənin iqlimi üçün xarakterik hesab edilməyən Şərq çinarları bu ərazilərdə daha sürətlə boy atır. O, bunu çinar ağaclarının kökünün torpağın daha dərin qatlarınadək uzanması və Gəncənin yeraltı çay, kəhriz su sisteminə malik olması ilə əlaqələndirir. Z.Həsənov deyib ki, Şərq çinarının məskəni Zəngilan hesab edilir. Nəinki Gəncədə, eləcə də ölkəmizin digər şəhər və rayonlarında Şərq çinarlarının əkilməsi məqsədəuyğundur. Çünki çinar iri yarpaqları vasitəsilə şəhər atmosferinin tozunu və insan orqanizmi üçün zərərli qazları udaraq, ətrafda zəngin oksigen mənbəyi yaradır. Bu mikroiqlim insanlarda fiziki yorğunluğu aradan qaldırır, sinir sisteminin fəaliyyətinə müsbət təsir göstərir.




Gəncədə yaşı 150-ni keçən 224 çinar ağacı var.Şəhər sakinlərinin ilin isti aylarında kölgəsinə sığındığı çinar ağacları xüsusi mühafizə olunur və pasportlaşdırılır. Pasportda ağacın yaşı, diametri, hündürlüyü barədə məlumatlar qeyd edilir. Gəncədə Şah Abbas məscidinin həyətində 1606-cı ildə əkilən çinar ağacları bu gün də yaşayır. Şəhər ətrafında olan ağaclardan ən qədiminin isə 1500 yaşı var.

Qeyd edək ki, bir sıra ölkələrin xalq təbabətində çinarın yarpağından və qabığından istifadə geniş yayılıb. Antiseptik xüsusiyyətlərə malik olduğundan, ondan hazırlanan dəmləmələr və məhlullar əsasən qızdırmanın salınmasında, saçdakı kəpəyin təmizlənməsində, baş dərisindəki qaşınmanın qarşısının alınmasında, ilan sancmasında, həmçinin sulu və açıq yaralar zamanı istifadə edilir.

## Dağ yəhudilərinin etirazı

bayanat

Almaniyadakı Dağ Yəhudiləri İcması İctimai Birliyinin sədri Orxan Şafadiyayev bu ölkənin Loytershauzen şəhərində keçmiş Loytershauzen sinaqoqu dairəsi tərəfindən yanvarın 31-dən fevralın 26-dək «Birinci Dünya müharibəsi və ermənilərə qarşı soyqırımı» sərgisinin keçirilməsi ilə bağlı bu təşkilata etiraz məktubu ünvanlayıb.

Məktubda deyilir: «Azərbaycan yəhudiləri olaraq bildiririk ki, sərginin 26 fevral tarixinə qədər davam etməsi yəhudi və Azərbaycan xalqlarına qarşı təhqirdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri Azərbaycanın Xocalı şəhərinə hücum edərək XX əsrin ən dəhşətli faciələrindən birini törədiblər. Faciə zamanı 85-i uşaq və 106-sı qadın olmaqla 613 günahsız mülki şəxs amansızlıqla qətlə yetirilib. Bu dəhşətli cinayətin qurbanları hər il 25-26 fevral tarixlərində dünyanın müxtəlif ölkələrində yad edilir. İndiyədək Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində yəhudi xalqı da itkilər verib. Bu ədalətsizliyi dəstəkləmək rüsvayçılıqdır».

**Müdriklər deyib ki...**



*«Ağıllı insanlarla dostluq edin, çünki axmaq dost ağıllı düşməndən qat-qat təhlükəlidir».*

*Cəlaləddin Rumi (1207-1273)*